QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ölkədə yaşanan siyasi həmrəyliyin təcəssümü!



3

SƏS

№ 096 (7264)

4 iyun 2025-ci il.
Qiymәti 60 qәpik

# Ədalətli mübarizədə qazanılan qələbə!




2

Prezident İlham Əliyev: "Biz həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında qələbə qazanan ölkəyik"

# Azərbaycanın bu günü kimi sabahı da parlaq olacaq



7

## Gələcəyi susdurulmuş uşaqlar



5

## 4 İyun Gəncə qiyamından ötən 32 il



12

## Kişilər oğlan istəyində, qadınlar selektiv abortlarda...



8

## Yayda yanacaq sərfiyyatını necə azaltmaq olar?



16

## Ay alan, uşaq satıram!



5

# Ədalətli mübarizədə qazanılan qələbə!

## Prezident İlham Əliyev: "Biz həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında qələbə qazanan ölkəyik"

Dünyada idman ölkəsi kimi tanınan Azərbaycan beynəlxalq idman arenasında artıq özünə layiqli yer tutub. İstər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə bu imicə sahib olub. Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq ölkənin bütün sahələrində, eləcə də idman sahəsində böyük nailiyyətlər əldə olunub. Dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda yüzlərlə beynəlxalq yarışlar keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub və Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb. Bu günlərdə Azərbaycan millisinin Bakıda keçirilən dünya çempionatında qalib olması böyük əks-səda doğurub. Əlbəttə ki, bu tarixi uğur dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan idmanına olan diqqətinin daha bir göstəricisidir. Azərbaycan millisi finalda Macarıstana 4:2 hesabı ilə qalib gələrək dünya çempionu olub. "Biz həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında qələbə qazanan ölkəyik". Bu sözləri Prezident İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edərkən söyləyib. Dövlətimizin başçısı qeyd edib ki, məhz bizim istedadlı və peşəkar gənclərimiz bu qələbə sevincini bizə gətirirlər. "Siz Azərbaycan xalqına yeni qələbə sevinci bəxş etmisiniz! Dünya çempionu olmaq böyük şərəfdir və böyük məharət tələb edir, xüsusilə komanda idman növündə. Bu, artıq gözəl tarixdir. Bu tarixi yazan da sizsiniz və şadam ki, Azərbaycanda minifutbol üzrə belə güclü oyunçularımız var", - deyə Azərbaycan Prezidenti bildirib.








### "BÜTÖVLÜKDƏ QƏLƏBƏLƏR AZƏRBAYCANA YARAŞIR"

İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edərkən görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan milli komandasının bütün oyunlarda peşəkarlıq, qələbə əzmi göstərərək dünya çempionu titulunu qazandığını diqqətə çatdırıb: "Çempionatı izləyənlər öz gözləri ilə bizim oyunçularımızın tam üstünlüyünü görə biliblər. Mən oyunlarınızın son dördünü izləmişəm və tam əminliklə deyə bilərəm ki, bu qələbə ədalətli mübarizədə qazanılmış qələbədir. Siz bu qələbəyə layiqsiniz. Futbol meydançasında bütün rəqibləri üstələmisiniz və eyni zamanda, gözəl komanda ruhu nümayiş etdirmisiniz. Görürəm ki, oyunçular bir-birinə çox bağlıdır, bir ailə kimidir. Əlbəttə ki, komandada hökm sürən bu gözəl ab-hava, bu iqlim qələbənizi şərtləndirən amillərdən biridir, eyni zamanda, bütün tamaşaçılar da bunu əyani şəkildə görüblər. Oyunu həm gimnastika arenasında izləyənlər, həm də televiziya vasitəsilə izləyənlər sizin qələbənizə ürəkdən sevinmişlər. Yenə də deyirəm, siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır."

### AZƏRBAYCAN MİLLİ KOMANDASI BÜTÜN MÜMKÜN OLAN TİTULLARI QAZANIB

Əlbəttə ki, dövlət başçısının idmana, gəncliyə verdiyi dəstək uğurları şərtləndirən amillər sırasındadır. Hələ komanda 2022-ci ildə Avropa çempionu olanda Azərbaycan Prezidenti onlarla səmimi söhbəti zamanı tapşırıqlarını vermişdi. Bu gün isə artıq dünya çempionu oldular. "Bu qələbə minifutbolun inkişafına növbəti təkan verəcək. Artıq Azərbaycan milli komandası bütün mümkün olan titulları qazanıb - Avropa çempionu, dünya çempionu. Əlbəttə ki, uşaqlar, yeniyetmələr, bax, bu qələbəyə sevinənlər - bizim gənc nəslimiz hesab edirəm ki, minifutbola daha böyük maraq göstərəcək və bu idman növünün inkişafı Azərbaycanda sürətlə gedəcək", - deyə dövlət başçımız çıxışında bildirib: "Milli komandamızın bütün üzvləri Azərbaycanda yetişdirilmiş gənclərdir. Bunun da xüsusi önəmi var. Yığma komandamızın müxtəlif inkişaf mərhələləri var idi və bu gün biz qələbə mərhələsində görüşürük. Təbii ki, xarici mütəxəssislərin, bəzən oyunçuların da müəyyən payı olub. Amma bu gün Azərbaycan milli komandası sırf Azərbaycanda doğulmuş, boya-başa çatmış gənclərdən ibarətdir və bu da xüsusi qürur hissi oyadır. Mən əminəm ki, bundan sonra da siz bizi sevindirəcəksiniz. Gələcəkdə çoxlu yarışlar var. Bildiyiniz kimi, indi Azərbaycanın bölgələrində idman qurğuları inşa edilir, inşaat geniş vüsət alıb və minifutbol meydançalarının da yaradılmasında böyük fayda olacaq, həm Bakıda, həm də bölgələrdə. Əminəm ki, federasiya dövlət qurumları ilə, sponsorlarla birlikdə bu sahədə növbəti uğurlu addımlar atacaqdır."

### XALQIMIZIN QƏHRƏMANLIQ TARİXİNİ YAZANLAR DA GƏNCLƏRDİR

Müasir dövrümüzdə Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. "Biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik" - deyən Prezident çıxışlarının birində qeyd edib ki, siz idmançılar bundan sonra, sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz: "Bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq".

### AZƏRBAYCANDA İDMAN İNFRASTRUKTURU

Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Son illərdə dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda 300-dən çox beynəlxalq yarış keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Bu yarışların Azərbaycanda keçirilməsi bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. Dünyaya əminliklə bəyan etdiyi gücünü, qüdrətini və təhlükəsizlik tədbirlərinə cavabdehliyini göstərib. Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. uğurla keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. İlk Avropa Oyunlarının da Bakıda keçirilməsi böyük nailiyyət kimi idman tariximizə həkk olundu. "Bakı - 2015" Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı. "Bakı-2015" ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri kimi tarixiləşdi. İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri də yaddaqalan oldu. Bu idman, dostluq və qardaşlıq bayramına çevrilən oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Azərbaycan 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldü. "Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Ötən il idmançılarımız "Paris-2024" Yay Paralimpiya Oyunlarında uğurla iştirak etdilər. Paris Paralimpiadasında Azərbaycan 7 növdə 18 idmançı ilə təmsil olunurdu. "Paris-2024" Yay Paralimpiya Oyunlarında da idmançılarımız uğur qazandılar. Qeyd edək ki, "Paris-2024" Yay Paralimpiya Oyunlarında 7 idman növü üzrə 18 idmançı ilə təmsil olunan Azərbaycan 4 qızıl, 2 gümüş və 5 bürünc olmaqla ümumilikdə 11 medal qazanıb. Ölkəmiz medal sıralamasında 169 ölkə arasında 28-ci yeri tutub. Bütün bu uğurlar onu göstərir ki, gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini dövlətimiz daim diqqət mərkəzində saxlayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ölkədə yaşanan siyasi həmrəyliyin təcəssümü!

Siyasi partiya sədrlərinin işğaldan azad olunmuş ərazilərə birgə səfərləri Azərbaycan cəmiyyəti tərəfindən artıq formalaşmış demokratik ənənə kimi qəbul olunur. Prezident İlham Əliyevin təşəbbüsü ilə fəal şəkildə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində siyasi partiya sədrlərinin birgə səfərləri siyasi müstəvidə tərəflər arasında yaşanan etibarlı münasibətlərin göstəricisidir. Odur ki, müsbət ənənəyə çevrilmiş sözügedən səfərlər artıq ölkənin siyasi gündəliyinin ayrılmaz parçasıdır. Təsadüfi deyil ki, milli həmrəylik təzahürü ilə təcəssüm olunan sözügedən demokratik təcrübə ictimaiyyət tərəfindən təqdir olunur və dəstəklənir. İyunun 3-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin sayca yeddinci (daha öncə Ağdam, Şuşa (2 dəfə), Zəngilan, Xocalı, Əsgəran, Xankəndi və Laçın) olan növbəti birgə səfəri baş tutub.

Son illərdə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində mütəmadi olaraq müxtəlif səpgili layihələr icra edilir. Siyasi partiya sədrlərinin, habelə ölkədə tanınmış alim, politoloq və qələm sahiblərinin iştirakı ilə təşkil olunan çoxsaylı görüşlər, açıq müzakirələr, teledebatlar, peşəkar diskussiyalar, birgə səfərlər, konfranslar və digər bu kimi layihələr mövcud istiqamətdə görülən işlərin sadəcə bir parçasıdır. Bütün bu təşəbbüslər demokratik ənənələri daha da dərinləşdirir və siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar olunmasına xidmət edir.







Budəfəki birgə səfərin ünvanı Cəbrayıl və Zəngilandır. Səfərdə, ümumilikdə, 70 nəfərdən artıq şəxs iştirak edib. 24 siyasi partiyanın sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlərin iştirakı ilə keçirilmiş səfərin proqramı kifayət qədər zəngin və maraqlı idi.

Səfər çərçivəsində iştirakçılara Horadiz şəhərinin yaxınlığında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən aparılan minatəmizləmə fəaliyyəti barədə geniş məlumat verilib və düşmən tərəfindən basdırılmış minaların zərərsizləşdirilməsi prosesini izləmək imkanı yaradılıb.





Daha sonra səfər iştirakçıları üçün Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi tərəfindən Cəbrayıl şəhərinin giriş hissəsində işğal zamanı düşmənin dağıtdığı evlərin qalıqları, Cəbrayıl şəhər yaşayış kompleksi və Mehdi Mehdizadə adına tam orta məktəb ilə tanışlıq, həmçinin şəhərin baş planının təqdimatı keçirilib.

Səfər çərçivəsində iştirakçılar Cəbrayılda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı haqqında geniş məlumat əldə ediblər. Daha sonra qonaqlar üçün Zəngilanın Məmmədbəyli kəndi, Zəngilan şəhər məscidi, Zəngilan Konqres Mərkəzi, 104 mənzilli yaşayış kompleksi və Oxçuçay üzərində yerləşən "Zəngilan" SES-ə ekskursiyalar təşkil olunub.

Siyasi partiya sədrləri ilə birgə səfərdə iştirak edən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev siyasilərin qarşısında çıxış edərək, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində ötən dövr ərzində görülmüş işlər haqqında geniş məlumat verib.

Sağlam əməkdaşlığın və həmrəylik mühitinin siyasi sabitliyin və demokratik münasibətlərin əsas və prinsipial göstəricilərindən olduğunu vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, mövcud istiqamətdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən nümayiş olunan siyasi iradə əldə olunmuş bütün uğurların əsasını təşkil edir, həmçinin 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə Azərbaycan xalqının əzmkarlığı ilə yanaşı, cəmiyyətimizdə yaşanan milli həmrəyliyi və birliyi təcəssüm etdirir.

Cəbrayıl və Zəngilanın timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan genişmiqyaslı işlər Azərbaycan dövlətinin iqtisadi qüdrətinin nümayişi olduğunu bildirən Ədalət Vəliyev qeyd edib ki, bir müddət sonra Qarabağ dünyanın ən füsunkar ünvanlarından biri olacaq. Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Böyük Qayıdış Proqramı bu cür nəticələrin əldə olunması üçün müstəsna zəmin yaradır. Səfər iştirakçılarına bildirilib ki, bölgənin turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.



REPORTAJ



# Qurbanlıq heyvan necə seçilməli və kəsilməlidir?

***Üç səmavi dinin - Yəhudilik, Xristianlıq və İslamın hər üçündə də müxtəlif formada qurbanlıq mövcuddur. Lakin İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur.***

İnsanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. Bütün dinlərdə icra edilən qurban İslamda hicrətin ikinci ilində əmr edilmişdir. İslama görə, qurban "Allaha yaxınlaşdıran şey" mənasına gəlir. Bir başqa sözlə ifadə etsək, qurban Allaha yaxınlaşaraq, onun rizasını qazanmaq üçün Qurban bayramı günündə ibadət niyyəti ilə və Allahın adıyla kəsilən heyvana deyilir.

Qurban bayramı İslam aləminin ən möhtəşəm və müqəddəs bayramıdır, dərin tarixə malikdir və hər il dünya müsəlmanları tərəfindən qeyd edilir. Bu bayram özü ilə hamıya saflıq, təmizlik gətirir.

İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən Qurban bayramı Azərbaycanda da dövlət səviyyəsində bayram edilir.

SİA mövzu ilə bağlı ekspertlərin və sakinlərin fikirlərini öyrənib.

**İlahiyyat üzrə fəlsəfə doktoru, deputat Ceyhun Məmmədov:** "Bayramlardan biri



Ramazan bayramıdır. Bu bayram orucluq ayı bitdikdən sonra qeyd olunur. Ramazan ayının sonunda tutulan orucların ardından, müsəlmanlar bu bayramı böyük sevinc və ruh yüksəkliyi ilə keçirirlər. Bu, orucluqdan sonra gələn böyük bir mənəvi rahatlama və birlik günüdür.

İkinci əsas bayram isə Qurban bayramıdır. Bu bayram Həcc mövsümünə təsadüf edir və İslamda çox böyük əhəmiyyətə malikdir. Qurban bayramında imkanlı insanlar qurbanlar kəsir, bu qurbanlar Allah rizası üçün edilir və ətləri imkansız insanlara paylanılır. Beləcə, cəmiyyətin zəif təbəqələri sevindirilir, birlik və mərhəmət ruhu güclənir.

Bu bayramda insanlar bir-birinə yaxınlaşır, paylaşma və yardımlaşma hissləri ön plana çıxır. İslam dininə görə imkanı olan hər bir müsəlmana qurban kəsmək tövsiyə olunur. Qurban Bayramı bu baxımdan yalnız dini ibadət deyil, həm də insani və sosial bir vəzifədir. İnsanlar bu gündə həm savab qazanır, həm də bir-birinə sevgi və diqqət göstərirlər.

Bu bayram Ramazan günlərindən fərqli olaraq, daha çox paylaşmaq və qurban kəsməklə yadda qalır. İslamda Qurban Bayramının çox böyük mənəvi və ictimai dəyəri var. Ona görə də bu gün xüsusi hörmət və ehtiramla qeyd olunur".

**Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev:** "İnşallah, bu il də Qurban bayramı ayın 6-sı qeyd olunacaq. Dövlət səviyyəsində iki gün rəsmi bayram günü elan olunur. Amma şəriətə görə qurban kəsmək üçün üç gün vaxt var: ayın 6-sı, 7-si və 8-i. Yəni bu üç günün hər birində qurban kəsmək icazəlidir, burada heç bir maneə yoxdur.

Hər il olduğu kimi bu il də bütün məscidlərimizdə Qurban bayramı namazı qılınacaq. Hər məscid icması, imamlar camaatın gəlişinə uyğun olaraq namaz vaxtını tənzimləyə bilər. Bəzən namaz saat 8-də, bəzən isə 9-



da qılınır. Bu, tamamilə məscid icmasının ixtiyarındadır. Bakı və ətraf kəndlərdə əksər məscidlərdə namaz adətən saat 9-da qılınır. Məsələn, Əjdərbəy məscidində (Göy Məscid), Heydər məscidində və digər böyük məscidlərdə camaatın sayına uyğun olaraq həm saat 8-də, həm də 9-da namaz qılmaq mümkündür.

Qurbanlıq heyvanlara gəlincə, ən azı xırda buynuzlu heyvan - qoyun, keçi və ya qoç kəsilə bilər. Əgər imkan varsa, ailə başçısı bir qurban kəssə daha gözəldir. Xırda buynuzlu heyvana şərik olmaq məsləhət görülmür. Ən yaxşısı, bir nəfər öz adından kəssin. Amma iri buynuzlu heyvana - inəyə, camışa, yaxud dəvəyə bir neçə nəfər şərik ola bilər. Məsələn, 5, 7 və ya daha çox insan, heyvanın çəkisinə görə ortaq ola bilər. Qurbanlıq heyvanın yaşı da vacib məsələdir. Xırda buynuzlu heyvanın yaşı ən az 8 ay olmalıdır, 1 yaş olsa daha yaxşıdır. İri buynuzlu heyvanın yaşı 1, ya da 2 yaş ola bilər. Dəvə isə ən azı 5 yaşında olmalıdır.

Qurban kəsmək Həccdə olanlar üçün vacibdir - bu İsmail qurbanıdır. Amma Həccə getməyən, bizim kimi vətəndə yaşayan müsəlmanlar üçün müstəhəb sayılır. Yəni imkan varsa, qurban kəsmək Allahın bəyəndiyi əməllərdəndir və böyük savabdır.

Kəsilən heyvanın əti 3 hissəyə bölünür:

** Bir hissə qurban kəsənin öz ailəsinə,*
** Bir hissə yaxın qohumlara, qonşulara,*
** Bir hissə isə imkansızlara verilir.*

Əgər kəsən adamın özünün o ətə ehtiyacı yoxdursa, ətin hamısını ehtiyacı olanlara paylaya bilər. Bu daha fəzilətli, daha savab bir işdir. Paylama zamanı da diqqət olunmalıdır. Heyvanın müxtəlif bədən hissələrindən - məsələn, qol, bud, qabırğa və s. - hər paylanan şəxsə müxtəlif hissələrdən də ət verilsin. Ədalətli və mehriban yanaşma olsun.

Allah kəsilən bütün qurbanları qəbul etsin. İnşallah, hər birimizin duaları qəbul olunsun. Allah bizə hər il belə gözəl, bərəkətli bayramlar nəsib etsin. Amin!"

**Qəssab Nadir Qarayev:** "Qurban bayramı yaxınlaşır, amma qiymətlərdə ciddi bir



dəyişiklik müşahidə olunmur. Hazırda quzu ətinin qiyməti 18,50-19 manat, dana ətinin qiyməti isə 15 manat 50 qəpik civarındadır. Alıcılıq qabiliyyəti isə çox zəifdir. Artıq 2-3 ildir ki, bu zəiflik davam edir. Qiymətlərin yüksəlməsi üçün alıcılıq qabiliyyəti olmalıdır, o da hazırda yoxdur. Əvvəllər Qurban bayramlarında hər gün 100 quzu, 2-3 dana kəsirdim. İndi isə cəmi 2-3 quzu kəsə bilirəm. Tələb çox aşağıdır".

**Şəhər sakini İradə Məmmədova:** "40 il müddətində müəllim kimi çalışmışam. Hazırda təqaüddəyəm. Ona görə də bu il də



qurban kəsməyi çox istəyərdim, amma təxminən 10-12 il ərzində artıq kəsmişəm. Müəllim yoldaşlarımızla birlikdə yığışıb iribuynuzlu heyvan kəsirdik. Ehtiyacı olan ailələrin siyahısını tərtib edir, sonra isə ət paylarını onlara çatdırırdıq".

**Şəhər sakini Fəxrəddin Əzizov:** "Qurban bayramını çox gözəl keçiririk. Xırdabuynuzlu heyvanlar kəsirik və onları yeddi qonşuya, kasıb ailələrə paylayırıq. Allah bu ildə



də bizə bol ruzi nəsib etsin ki, növbəti dəfə iribuynuzlu heyvan qurban kəsə bilək. Uca Allah bütün qurbanları qəbul etsin, onların içində bizim qurbanımızı da. Qurbanlıq ətindən təxminən 11-12 kiloqram özümüz götürürük, qalan hissəni isə ehtiyacı olan şəxslərə paylayırıq. Qurban yalnız bayram günləri ilə məhdudlaşmır. Bayramdan kənar zamanlarda da kasıb və ehtiyaclı ailələr üçün qurban kəsmək savab əməllərdən sayılır".

**Şəhər sakini Olqa Rüstəmova:** "Ümumiyyətlə, mən iki bayramı qeyd edirəm: biri Novruz bayramıdır, digəri isə Qurban bay-



ramı. Qurban bayramı zamanı qohumlar bir araya gəlir, qurbanlıq üçün pul toplanır və ehtiyacı olan ailələrə paylanılır. Mənim atam azərbaycanlı, anam isə rusdur. Rusiyada da qurban kəsmək adəti var. Mən bu il iki bayram qeyd edirəm".

***Söylü Ağazadə***





# Gələcəyi susdurulmuş uşaqlar

*4 İyun - Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günüdür*



Uşaqlar gülərsə, dünya gülər, uşaqlar sevinərsə, cahan sevinər, fikrində böyük bir həqiqət dayanır. Dünyamıza sülh, əmin-amanlıq gərəkdir ki, məsum uşaqlar gülsün. Aydın səma, parlaq günəş, ağlamayan analar və xoşbəxt uşaqlar məfhumları bir-biri ilə zəncivari şəkildə bağlıdır. Dünya müharibənin od-alovunu çox görüb və bundan əziyyət çəkən günahsız uşaqlar ata-anasını, doğulduğu yurdu, hətta həyatlarını belə itiriblər. Dünyanın müharibə adlı fəlakətinin, dəhşətli bəlasının günahsız qurbanları Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günündə anılır. 4 İyun - Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günüdür. Bu gün dünya ictimaiyyəti münaqişələr və terrordan zərər çəkən uşaqların gününü qeyd edir. Bütün dövlətlər uşaqların müdafiəsi üçün mühüm təminatlar verən 1925-ci il Cenevrə protokoluna və 1949-cu il Cenevrə konvensiyalarına, insan hüquqlarına hörmət edilməsinə aid digər beynəlxalq hüquq aktlarına müvafiq öhdəliklərini tam yerinə yetirməli, müharibə edən tərəflərin hərbi əməliyyatlar zamanı uşaqlara qarşı törədilən bütün repressiya və qəddarlıq, insanlıqdan kənar davranış formaları cinayətkar hərəkətlər sayılır. 1982-ci il avqustun 19-da BMT-nin Baş Assambleyası özünün Fələstin məsələsi üzrə xüsusi sessiyasında hər il iyunun 4-nü Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü kimi qeyd etməyi qərara almışdır. Müharibələrdə yalnız əsgərlərin deyil, uşaqların da həlak olduğunu unutmamaq üçün BMT bu günü təsis etmişdir. Bu günün əsas məqsədi dünyanın fiziki zorakılığa, mənəvi-psixoloji və ruhi təsirə məruz qalan bütün uşaqlarının ağrılarını və əzablarını hiss etmək cəhdidir.

### 26 UŞAĞIN MÜƏMMALI TALEYİ

Azərbaycanda olan uşaqlar da müharibənin ağrı-acısını yaşamış, təcavüz və terrorların qurbanına çevrilmişdilər. Qaçqın, köçkün həyatını yaşamaq məcburiyyətində qalan uşaqlarımızın taleyinə uğursuz uşaqlıq həyatı yazılmışdı. 30 ilə yaxın işğalçı Ermənistan tərəfindən torpaqlarımız zəbt olunmuş və azyaşlıların həyatında qara zolaq olaraq iz salmışdır. Müharibə, Xocalı kimi soyqırımı yaşayan və ya həyatlarını iştirən uşaqların xoşbəxt yaşayan uşaqlar kimi tale üzlərinə gülməmişdir. Çadır şəhərcikləri, ah-naləli ömür onların psixoloji sarsıntılar keçirmələrinə səbəb olmuşdur. Bütün dünyada münaqişələr zamanı nə qədər uşağın həlak olması haqqında dəqiq statistika aparan yoxdur. Ekspertlərin qənaətinə görə, mərmi və güllə səsləri uşaqlarda travmalar yaradır. Bu uşaq psixikasına çox ciddi zərbə vurur. İnsan cəsədi, qan və ya bu kimi şeylər nəinki uşaqlarda çox ciddi psixi travma yarada bilər. Uşaqlarda isə davranış pozuntularına, dərin depressiyalara səbəb ola bilər. Böyüyəndə belə uşaqlarda şəxsiyyət pozuntusu, müxtəlif sayılı nevrozlar olur və onlar şəxsiyyətlərini tam istədikləri kimi inkişaf etdirə bilmirlər. Müharibə şəraitində böyüyən uşaq bir çox şeylərdən məhrumdur.

Hələ valideynləri həlak olan, şikəst olan, yaralanan uşaqların psixikasında nələrin yaanıldığının izahına ehtiyac yoxdur.

Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən güllələrindən 76-ı uşaq yaralanıb. Əsir götürülənlərdən 26 uşağın taleyi bu günədək məlum deyil.




*Ardı Səh. 6*



## Ay alan, uşaq satıram!

Lalə Mehralı

Klinikaların folikul və sperma bazarı barədə çox adamın məlumatı var. Donorlardan alırlar, süni mayalanma ilə pasiyentlərə köçürürlər. Klinikalar spermanı 100 manatdan, folikulu 500-700 manatdan alırlar, pasiyentlərinə 5-6 minə satırlar. Bu proses illərdir var, pula ehtiyacı olan gənclər bu yolla rahat pul qazanır. Səbəb olduqları fəlakətin böyüklüyünü bilmədən. Savadsızlıq o həddədir ki, satdığı folikuldan, spermdən doğulacaq uşağın doğma övladı olacağını anlamır. Folikulunu satan qadın, spermasını 50-100 manata peşkəş edən gənclər yalnız alacağı məbləği düşünür, gələcəyi götür-qoy etmir.

Bu işlə məşhur olan həkimlərin sosial şəbəkədəki reklamlarında qadınlara 10 gün ərzində 500-800 manat qarşılığında folikul donor olmaq təklif edilir. Hətta bunun üçün açıq şəkildə donorluğa uyğun olan kriteriyalar da göstərilir. Yəni ailə klinikaya gəlir, ya ataya, ya da anaya oxşar bir donordan folikul, ya da sperm götürülməsini tələb edir, bunun müqabilində böyük məbləğdə pul ödəyir. Həkim də çıxır pasiyentlərinə oxşayan donor ovuna. Doğulacaq uşaq valideynlərdən birinə bənzəməlidir ki, ətrafı süni mayalanma zamanı donordan istifadə edildiyini düşünməsin.

Bu yumurta hüceyrələri alveri ilə daha çox instaqramda məşğul olurlar. Qadın səhifələrində pusquya yatan həkimlər və ya asisentləri qəpik-quruşa əldə etdikləri yumurtaları sonsuzluq problemi olan qadınlara 4 və ya 5 qat baha qiymətə satır. Səhifələr bu işin qanuni olduğunu bildirirlər. Ancaq əslində bu, insan alverinin bir forması sayılır. Yəni qanunlarımız ödənişli donorluğu qadağan edir.

Qanun donor olmağa könüllü və pulsuz şəkildə olması halında icazə verir. Folekul və sperm donorluğu isə 1 dəfədən çox olmamaq şərti ilə həyata keçirilməlidir. Folikulların köçürülməsi süni mayalanma deməkdir, süni mayalanma xidmətinin reklam olunması, paylaşılması isə reklam haqqında qanunvericiliyə görə qadağandır.

Folikul+sperma satan nə bilir sabah evdəki övladı ilə süni mayalamadan doğulan övladının yolları kəsişməyəcək? Hardan əmindir ki, iki övladı gələcəkdə evlənməyəcək? Bunun ki qarantı yoxdur? Yaxın gələcəkdə bacı-qardaş evliliyi qaçılmaz olacaq. Bu işlərə çoxdan əl atmış həkimlərin sayəsində bəlkə də artıq bu baş verib, xəbərimiz yoxdur.

Bu işlə məşğul olan klinikalar donorlara heç bir zərəri olmadığını, təhlükəsiz təbii prosedur olduğunu deyirlər. Amma aldadırlar. Əgər folikul satmağa qərar versəniz sizə onun yetişməsini sürətləndirəcək hormonal iynələr vurulacaq. Çünki bu işlə məşğul olan həkimlər 1 folikulla kifayətlənmirlər, işdir, əgər birdən mayalanma getməsə ödənilən pul boşa getməsin deyə ehtiyat folikullar götürülür. Donora vurulacaq hormonal iynələrlə ən azı 2-3, bəzən daha çox folikul yetişir. Yəni sizə 1 folikul götürüləcəyini deyib müqabilində 500-700 manat ödəyib əslində 3-5, bəlkə də daha çox folikul götürürlər. Həmin an qadın dərmanla yatırdılmış olur və prosesdən xəbəri olmur. Əldə edilən hər folikulu ayrı-ayrı pasiyentə satırlar, qaz vurub qazan doldururlar. Nəticədə, bir qadın 10 gün ərzində 2-5 uşaq sahibi olmuş olur. Bir fərq var ki, uşaqlar özünün olsa da, başqa qadının bədənində böyüyür. Eynilə surroqat anada olduğu kimi...

Bəzən iddia edilir ki, indi əksər qadınlar övladı olmadığı halda stimulasiya edir. Bu prosedurun zərərli olmadığını, folekul donorluğunun da buna bənzər olduğunu iddia edən həkimlər bu yolla çoxlu donor tora salır. Doğrudur, stimulasiya da zərərli prosedurdur, lakin nəticəsində övladını satmırsan və sağlamlığına zərər gəlsə belə bu prosesdən sonra doğulan övladın yanında olur. Lakin folikul donoru olduğunuz halda sizə bərpası mümkün olmayan fiziki zərər verəcəklər və bunun qarşılığında çox az məbləğ təklif edəcəklər.

Eyni təbliğat kişilər arasında da aparılır. Sağlam kişilərin spermi pul qarşılığında alınır və süni mayalanma üçün müraciət edən pasiyentlərə təklif edilir. Bir fərq var ki, qadınlara folikulu yetişdirmək üçün hormonal iynələr vurulur, kişilərdə isə bu iynələrə ehtiyac olmur. Bu yolla özünə asan gəlir yeri tapan işsiz gənclər var. Fərqində deyillər ki özlərindən xəbərsiz saysız uşaq sahibi ola bilərlər və ya-xud artıq olublar.

Dediyim kimi, qanunla bu prosedur ölkəmizdə qadağandır. Lakin bağlı qapılar arxasında baş verənlərdən xəbərimiz yoxdur. Əgər bunlar real olmasaydı, bu həkimlər sosial şəbəkələrdə donor ovuna çıxmazdı.

Əvvəli Səh. 5

# Gələcəyi susdurulmuş uşaqlar

*4 İyun - Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günüdür*

## GƏLƏCƏYİ OLMAYAN UŞAQLAR

Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkmişdir, onlardan 358-ni uşaqlar, 38-ni isə qadınlar təşkil edir." Bu, bəli təkcə minadan əziyyət çəkən uşaqları sayıdır. Ermənistan Silahlı Qüvvələri tərəfindən 44 günlük müharibə dövründə amansız və aqressiv davranışlar özünü daha qabarıq büruzə verdi. Bütün dünya münaqişə zonasından kənarda, Azərbaycanın Naftalan, Ağcabədi, Gəncə və Bərdə şəhər və rayonlarında mülki əhaliyə qarşı ermənilərin terror hücumlarının yaxından şahidi oldu. Bu terror hadisələri nəticəsində 12 uşağın həyatını itirməsi, 50 uşağın isə xəsarət alması işğalçı Ermənistan Silahlı Qüvvələrinin əsl simasını bir daha ortaya qoydu.

Əlbəttə ki, hərbi münaqişələr zonasında yaşayan uşaqlar - gələcəyi olmayan uşaqlardır. Azərbaycanın balaca uşaqları bu terrorların qurbanına çevrilib.

44 günlük Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasından xəbər vermirmi? Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Ermənistan tərəfindən həyata keçirilən terror aktları və müharibə cinayətlərinə etinasızlıq göstərilmədi. Vicdanla öz vəzifə borclarını yerinə yetirənlər Azərbaycanın təmas xəttindən uzaqda yerləşən şəhərlərini raket atəşə tutmasını, nəticədə çox sayda mülki şəxsin həyatının itirməsinin şahidinə çevrildilər. Gəncədə yaşanılan matəm məgər erməni təcavüzkarlığının üzü deyildimi?





2020-ci il sentyabrın 27-də saat 6 radələrindən Ermənistan silahlı qüvvələri tərəfindən başlamış silahlı hücumlar və hərbi təcavüz nəticəsində Ağcabədi rayonu üzrə 1 mülki şəxs qəsdən öldürülüb, 19 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Xəsarət almış şəxslərdən 5-i qadın, 14-ü isə kişi, o cümlədən 2-si azyaşlıdır. Kim idi bunları törədən? İnsanlarda onların əməllərinə qarşı yaranan qəzəb və nifrət yaddaşlardan silinərmi? Bu tarixdir: erməninin terrorçuluq əməllərinin izi və tarixi.



## DÜNYA VƏ İNSANLIQ BU FACİƏNİ NECƏ QƏBUL EDİR?

Gəncədə törədilən terror aktı daş yaddaşımıza həkk olunub. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Qanlı gecədə sakinlərin həyatını itirməsi, erməni terroristlərinin dinc əhaliyə qarşı törətdikləri cinayətlər sənədlərin dili ilə hər zaman danışacaq. Yatmış insanlara qarşı iyirmi birinci yüzillikdə törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Lənətlənmiş erməni əməllərinin izi Azərbaycan tarixinin hər səhifəsindən görünür. Bunu silmək, yox etmək qeyri-mümkündür. Erməni silahlı bölmələrinin oktyabrın 17-də gecə saatlarında Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə yaddan çıxarmı? Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşayarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu. Dünya, insanlıq bu faciəni necə qəbul edə bilər? Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsini qatili olan erməni. O erməni ki, 2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən daha bir çirkin siyasətin nümunəsi oldu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşısında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi.






## BMT-NİN UŞAQ HÜQUQLARI HAQQINDA KONVENSİYASININ MÜDDƏALARININ KOBUD ŞƏKİLDƏ POZULMASI

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilər Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub.

Ermənilərin tarixən kim olduqları dünyaya sübut edilib. Axı, Azərbaycana gələn səyyahların, böyük yazıçıların, tarixçilərin onlarla bağlı yazdıqları sözləri unutmamışıq. Qəbirləri dağıdan, şumlayan, məsciddə donuz saxlayan vəhşidən nə gözləmək olar? Beynəlxalq tribunallardan onların əməllərinə qarşı hökm oxunmalıdır. Humanizm prinsipinə hörmətsizlik edən, beynəlxalq hüququn normalarını, qanunvericiliyi kobud şəkildə pozan Ermənistan rəhbərliyi bütün hərbi cinayətlərə görə cavab verməlidir. Artıq Azərbaycanın haqlı mövqeyi müdafiə olunur. Terror qurbanı olan uşaqların işıqlı gələcək həyatları qabaqda idi. Hər birini xoşbəxt gələcək gözləyirdi. Erməni vəhşilərini müdafiə edənlər acı həqiqətlər qarşısında məsuliyyət daşıyırlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycanın bu günü kimi sabahı da parlaq olacaq



***Bu gün müstəqil Azərbaycan öz uğurları, nailiyyətləri ilə yeni tarix yazır. O tarixi ki, 5 min illik dövlətçilik tariximizdə heç zaman bu gün baş verən uğurları yaşamamışıq. Reallıq ondan ibarətdir ki, zaman-zaman təhdidlərə, təzyiqlərə, bəzən isə işğallara məruz qalsaq da, bir millət olaraq sabaha olan azad, müstəqil dövlət quruculuğundan imtina etməmişik. Əksinə, daha böyük cəsarət və inadla məqsəd və hədəfə doğru irəliləmişik.***

Sərhədlərimizin yaxınlığında yaradılmış Rusiya Azərbaycan torpaqları hesabına ərazisini bir qədər də genişləndirmək siyasəti daim mövcud olub. Qacarlarla Rusiya arasında gedən müharibə ilə Azərbaycan Şimal və Cənub olmaqla iki yerə parçalandı. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan Rusiya və Qacarlar arasında bölüşdürüldü: Şimali Azərbaycan Rusiyaya, Cənubi Azərbaycan isə qacarlara verildi. Rusiya Azərbaycanın şimalını işğal etməklə ciddi müstəmləkə və amansız işğal rejimi yaradaraq onu özünün əyalətlərindən birinə çevirməyə çalışırdı. Xanlıqla tədricən ləğv edilir və Rusiyanın üsil-idarəsi yaradılırdı. Gəncə, Qarabağ, Şəki, Bakı, Quba və Şamaxı xanlıqlarının ləğv edilməsinin ardınca Şəki və Lənkəran xanlıqlarında da xan üsuli-idarəsi ləğv edildi. Azərbaycanda mərkəzi şəhəri Şuşa olan "Müsəlman əyalətləri rəisliyi" yaradıldı. Keçmiş xanlıqlar və sultanlıqlar əyalətlərə və dairələrə çevrilmiş, 6 əyalət - Bakı, Quba, Şəki, Şirvan, Qarabağ və Talış, 2 dairə - Yelizavetpol və Car-Balakən, 2 distansiya - Qazax və Şəmşəddil təşkil edilmişdi. Əyalət və dairələrin də başında çar zabiti dururdu. Bu, komendant idarə-üsulu adlanırdı. Qafqazın baş komendantı tərəfindən təyin olunan həmin komendantların bəylərə torpaq bağışlamaq, yaxud geri almaq, həmçinin, digər siyasi-inzibati hüquqları var idi. Ümumiyyətlə, yerlərdəki komendantlar mütləq hakim hesab olunurdular. Onların təkcə ölüm hökmü vermək hüquqları yox idi. Əyalətlər xanlıqlar dövründə olduğu kimi, mahallara bölünürdü. Mahalların başında komendantların yerli bəylərdən təyin etdiyi mahal naibləri dururdular. Mahal naibləri vergiləri kəndlər arasında bölüşdürür, camaatı vergiləri vaxtında ödəməyə məcbur edir, kəndlilər arasında baş verən mübahisə və davadalaş doğuran məsələləri həll edirdilər. Kəndləri isə kətxudalar idarə edirdilər. Onların hər birinin yanında bir neçə onbaşı və yasovul olurdu. Mahal naibləri və kətxudalar dövlət xəzinəsindən maaş almırdılar. Onlar vergilərin bir qismini özlərinə götürür, yaxud da komendant onlara boş torpaq və həmin torpaqları becərmək üçün rəncbərlər bağışlayırdı. Komendant üsuli-idarəsi camaatı ağır istismara, zülmə və özbaşınalığa məruz qoyurdu. Həm komendantlar, həm də onların təyin etdikləri mahal naibləri vergi toplayarkən zorakılığa yol verir, camaatı soyurdular. Zaqafqaziyada yeganə azərbaycanlılar idi ki, zülmə və soyğunçuluğa qarşı etirazlarını bildiri, bəzən isə silahlı müqavimət göstərirdilər. Çar Rusiyası hər cür silahlara malik oduqlarından zülmə qarşı mübarizə qalxan Azərbayvcan əhalisini qəddarlıqla zəiflədirdi. Lakin tam şəkil də istəklərinə nail ola bilmirdilər.

## Ermənilərin satqınlığı Rusiyanı qane edirdi

Zaqafqaziyanın işğalı əhalinin nəinki təriqətçi etiqadını, hətta etnik tərkibini də dəyişdi. Rusiyanın dəstəyi ilə bölgə də ermənilərin sayı artırıldı. Xaricdən kütləvi şəkildə Azərbaycan ərazilərinə ermənilərin köçürülməsi siyasəti həyata keçirldi. Böyük Britaniyadan olan tədqiqatçı Corc Bornutian tərəfindən aparılmış tədqiqat təsdiq edir ki, Rusiya işğalından qabaq ermənilər Şərqi Ermənistanın bütün əhalisinin, təxminən, 20 faizini, müsəlmanlar isə 80 faizini təşkil edirdilər. Rusiya tərəfindən bölgə işğal etdikdən sonra indiki fars-molla rejiminin nəzarət etdikləri ərazilərdən və Osmanlı imperiyasından 57000 erməninin ərazilərdə yerləşdirdilər. 35000 azərbaycanlı isə Şərqi Ermənistanı tərk etdi. Ermənilər əsasən, xəzinəyə tabe olan torpaqlarda məskunlaşırdılar, lakin bəzi hallarda azərbaycanlıların torpaqlarını əllərindən almaqla onları öz yerlərindən didərgin salırdılar ki, bu da özündə etnik gərginlik potensialı daşıyırdı. Corc Bornutian yazırdı ki, ermənilər Avropa köçkünləri deyildilər, onlar sadəcə olaraq, Yaxın Şərq mühitindən olan gəlmələr idilər. Erməni əhalisinin cəmləşdiyi ərazilər əsrlərlə azərbaycanlıların yaşadıqları Qarabağ idi. 1830-cu illərdəki Rusiya məlumatlarına görə, burada 35000 azərbaycanlıya 8000 erməni yaşayırmışdır. 1845-ci ildə Qarabağdakı vəziyyət haqqında məlumat verərkən, bir ordu zabiti rus məmurlarının ermənilər haqqındakı rəyini belə yekunlaşdırırdı: "Ermənilər Rusiya hökumətinə sadiqdirlər və sözsüz, bizə heç vaxt xəyanət etməzlər. Onlar dinc həyat sürürlər, ara-sıra təsadüf olunan mənfi halları nəzərə almasaq, quldurluqla işləri yoxdur: bütün ermənilərə xas olan naqis cəhətlərə, aldatmağa, tamaha və hər cür şübhəli işlərə qurşanmağa güclü meyil Qarabağ erməniləri üçün də səciyyəvidir".

## Azərbaycanda demokratik respublika quruluşunun yaradılması

Hər cür zorakılıqlara, qəddarlıqlara baxmayaraq Azərbaycan xalqı müstəqil olmaq, dövlətçiliyini qurmaq mübarizəsini davam etdirmişdir. Nəhayət, uzun mübarizədən sonra Azərbaycanın demokratik qüvvələri 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətini elan etdilər. Bununla da bütün Şərq və türk-İslam dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika quruluşu yaradıldı. Müsəlman Şərqində ilk demokratik respublikanı-Azərbaycan Xalq Cümhuriyyətin yaratmaqla xalqımız sahib olduğu dövlətçilik ənənələrini bir daha təsdiq etdi. Azərbaycan Xalq Cümhuriyyəti özündə demokratik dəyərləri, eləcə də Şərq mədəniyyətinin xüsusiyyətlərini birləşdirən bir dövlət və cəmiyyət nümunəsi idi.

Cəmi 23 ay yaşamasına baxmayaraq, qısa müddətdə həyata keçirilən tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Azərbaycanın milli ordusu yaradıldı. Azərbaycan dili dövlət dili elan edildi. Üçrəngli-göy, qırmızı, yaşıl bayrağımız yaradıldı. Türk-müsəlman şərqində ilk dəfə bizim ölkəmizdə qadınlara seçib-seçilmək hüququ verildi. Xalqımızın savadlanması üçün məktəblər, yaşlılar üçün savad kursları, türk olmayan xalqlar üçün türk dilli kurslar açıldı. Cümhuriyyət yaranan zaman təhsilli milli kadrlara böyük ehtiyacı var idi və bu ali təhsil müəssisəsinin açılmasını vacib hesab edirdi. Təbii ki, dövlət quruculuğu işlərində milli kadrların olması mühüm amillərdən biridir. 1919-cu ildə Bakı Universiteti yaradıldı və hazırda Bakı Dövlət Universiteti ən böyük ali təhsil ocaqlarımızdan biridir. AXC-nin parlamentinin ikinci iclasında işləyən qadınlar üçün xüsusi güzəştlərə baxıldı: qadın sağlamlığı üçün zərərli işlərdən kənar edilmə, doğuşdan əvvəl və doğuşdan sonra ödənilən məzuniyyət, ananın iş yerində uşaq müəssisələrinin təşkili, xəstəlik dövründə dərman və əməkhaqqının müəssisə sahibinin hesabına ödənilməsi. Eyni zamanda, qadınlar üçün qısa müddətli müəllimlik kursları, peşə-ixtisas kurslarının açılması, uşaq bağçalarının sayının artırılması məsələləri öz həllini tapdı. Bütün bunlar hamısı qısa sürmüş müstəqillik zamanı əldə edilmiş uğurlar idi. Xalq Cümuhiriyyətinin qurucularından olan Məmməd Əmin Rəsulzadəni, Fətəli Xan Xoyskini, Əlimərdan bəy Topçubaşovu, Nəsib bəy Yusifbəylini, Həsən bəy Ağayevi, Məmmədhəsən Hacınskini və başqalarını böyük minnətdarlıq və ehtiram hissi ilə yad edirik. Onların parlaq həyatı, böyük fəaliyyəti və Azərbaycan xalqı qarşısında xidmətləri heç vaxt unudulmayacaqdır. 1920-ci il aprelin 27-də XI Qırmızı ordunun artıq Bakını ələ keçirmiş olduğu şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində hakimiyyəti bolşeviklərə təhvil vermək məsələsi müzakirə olunarkən qətiyyətlə bunun əleyhinə çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra gizli fəaliyyətə keçən Rəsulzadənin göstərişi ilə Bakıda "Müsavat"ın gizli mərkəzi yaradıldı. Onun özü isə Lahıcda gizləndi. Rəsulzadə qırmızı istiladan sonra Azərbaycan Xalq Cümhuriyyətinin dövlət strukturlarının dağıdılması, repressiyalar, qanlı qırğınlar dövründə xalqın sovet-bolşevik rejiminə qarşı göstərdiyi şiddətli müqaviməti və verdiyi saysız qurbanları görərək, milli bayrağın torpaqlara deyil, millətin vicdanına enmiş olduğunu, hər kəsin bu bayrağı ruhunda, qəlbində və bağrında mühafizə etməkdə olduğuna inandığını bildirirdi. M.Ə.Rəsulzadə bolşeviklər tərəfindən həbs olunsada, sonrdan Stalinin göstərişi ilə azad edilmişdir. M.Ə.Rəsulzadə AXC qurucularından biri olmaqla yanaşı həm də yaıçı-publisist idi. Onun mühahcirət dpvründə "Yeni Qafqasya" (1923), "Azəri Türk" (1928), "Odlu yurd" (1929), "Qurtuluş" (1934), "Müsavat bülleteni" (1936), "Azərbaycan" (1952) jurnallarını, "İstiqlal" (1932) qəzetini nəşr etdirmişdir. Rəsulzadə ömrünün sonunadək Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda istiqlal mübarizəsini davam etdirmişdir. 1955-ci il, mart ayının 6-da Ankarada vəfat etmiş və həmin şəhərin Əsri qəbiristanında dəfn olunmuşdur.

## Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra cümhuriyyət qurucularının fəaliyyətini yüksək qiymətləndirən qərarlar, Sərancamlar verilmişdir. 1998-ci ildə Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Sərəncamda qeyd edilir ki, Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir. Həmin Sərəncamdan irəli gələn vəzifələri icra edən Azərbaycan tarixçiləri qısa müddətdə AXC-nin zəngin irsinin öyrənilməsi istiqamətində böyük işlər gördülər.

1998-ci il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Ulu Öndərimiz Heydər Əliyevin çıxış edərkən bildirmişdir ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının həyatında tarixi hadisə olmuşdur və xalqımızın dövlətçilik salnaməsinin parlaq səhifələrindəndir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından keçən 80 il dörd mərhələyə bölünə bilər: birinci - 1918-1920-ci illər, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi illər; ikinci - 1920-1922-ci illər, Azərbaycan Sovet Sosialist Cümhuriyyətinin hakim olduğu illər; üçüncü - 1922-1991-ci illər, Azərbaycanın totalitar rejim, kommunist ideologiyası şəraitində yaşadığı dövr, Azərbaycan Sovet Sosialist Cümhuriyyətinin İttifaqında başqa müttəfiq respublikalarla birgə fəaliyyət göstərdiyi dövr. Dördüncü dövr 1991-ci ilin sonundan, dekabrından başlayır, Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi günündən indiyədək keçən illərdir. Bu mərhələlərin hər birinin tarixdə özünəməxsus yeri, Azərbaycan tarixində mənası, mahiyyəti və əhəmiyyəti vardır.Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il may ayının 28-də "İstiqlal Bəyannaməsi"nin elan olunması ilə yaranmışdır. Azərbaycanda Xalq Cümhuriyyətinin yaranması XIX əsrin sonu və XX əsrin əvvəlindəki dövrdə Azərbaycanın ictimai-siyasi, ədəbi, fəlsəfi mühiti ilə bağlıdır. Demək olar ki, o zaman Azərbaycanda və onun ətrafında gedən proseslər həmin o mühitin məntiqi nəticəsi olmuşdur.Şübhəsiz ki, bunun üçün lazımi şərait yaranmışdır. Birinci dünya müharibəsinin sona çatması, rus çarizminin süqutu, Rusiyada Oktyabr inqilabı və ondan sonra yaranmış gərgin vəziyyət, Moskva hakimiyyətinin Rusiyanın keçmiş ərazisinin hamısına lazımi qədər nəzarət edə bilməməsi, Cənubi Qafqazda, Zaqafqaziyada mövcud olan siyasi qüvvələrin hamısı birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün əlverişli şərait təmin etmişdir. Amma eyni zamanda belə bir cümhuriyyəti yaratmaq üçün Azərbaycanın qabaqcıl insanları lazım idi.

## Tarix yaradan və yaşadan lider

Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin xalqımız və dövlətimiz üçün böyük əhəmiyyət daşıdığını hər zaman vurğulamış və müsəlman Şərqində ilk parlamentli respublikanın yaradılmasını böyük tarixi nailiyyət adlandırmışdır. Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş rəsmi qəbulda Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini yüksək qiymətləndirmiş və onun 23 aylıq fəaliyyəti dövründə gördüyü işlərin, qəbul etdiyi qanunların AXC-nin çoxsaylı uğurlarından olduğunu söyləmişdir: "Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi yerləşməyimiz imkan verirdi ki, bu təbii resurslardan biz səmərəli şəkildə istifadə edək".

Birmənalı şəkildə demək olar ki, bugünkü güclü və qüdrətli Azərbaycan dövləti AXC-nin varisidir. Ulularımızdan bizə miras qalan dövlətçiliyi şərəflə və ləyaqətlə yaşadır və inkişaf etdiririk. Bu uğurları və nailiyyətləri bizə bəxş edən isə xalqımızın Dahi Lideri Heydər Əliyevdir. Dahi Öndərimizin ən layiqli siyasi varisi, Qarabağ Fatehi, Prezidentimiz İlham Əliyev əsası qoyulan siyasəti möhtəşəm şəkildə davam etdirir. Fateh Sərkərdənin diplomatik bacarığı, sərkərdəlik məharəti, uzaq görən siyasəti ilə 30 il erməni işğalı altında olmuş torpaqlarımız azadlığına qovuşdu. Bu gün işğaldan azad edilən ərazilərimizdə yeni həyat qurulur.

***İLHAM ƏLİYEV***

# Kişilər oğlan istəyində, qadınlar selektiv abortlarda...

***Bu gün həyəcan təbili çalmaq vaxtıdır. Ona görə ki, Azərbaycanda 2024-cü ildə 78 245 abort qeydə alınıb. 15-17 yaş üzrə 72, 18-19 yaş üzrə 2 679, 20-24 yaş üzrə 13 054, 25-29 yaş üzrə 23 468, 30-34 yaş üzrə 23 645, 35-49 yaş üzrə 15 239 abort olub. Onlardan 668-i dərman vasitələri ilə həyata keçirilib. 2 335 abort isə birinci hamiləliyin pozulması kimi qeydə alınıb. 2022-ci ildə abortların ümumi sayı 58 min, 2023-cü ildə isə 73816 olub. Deməli, abort sayı böyük sürətlə irəliləməkdədir. Abortların müxtəlif səbəbləri var. Onların başlıcası isə selektiv abortlardır.***

Belə bir atalar sözümüz var: qız da, oğlan da övladdır, hər ikisi bir-birindən şirin. Lakin həmişə belə düşünürükmü? Onların hər ikisi əksəriyyətimiz üçün bal şirinliyindədirmi? Xeyr, belə deyil. Əsrlərdir ki, oğlanla qız övladı arasındakı ayrı-seçkilik cəmiyyətimizdə açıqca görünür. Bunun səbəbkarı, əslində isə günahkarı əsasən kişilərdir. Kişilərin həyatda ən böyük arzusu qadınlarının onlara oğlan doğması olur. Oğlan doğulmayanda isə ailədə söz-söhbət yaranır, kişinin dünənədək dərdindən öldüyü, sevdiyi qadın əksər halda onun gözündən düşür, hətta bu səbəbdən boşanmalar da baş verir. Bununla bağlı yüzlərlə fakt söyləmək olar. Nəticə isə göz qarşısındadır. Elə məni bu yazını yazmağa vadar edən də həmin nəticədir.

## 100 qıza 113 oğlan

Dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya uyğun olaraq 102-106-dır. Belə ki, heç bir xarici müdaxilə olmadığı təqdirdə doğulan hər 100 nəfər qız uşağına 102-106 oğlan uşağı düşür. 1990-cı illərin əvvəllərindən Azərbaycanda bu nisbətin pozulması müşahidə edilir. 2021-ci ilin statistikasına əsasən, Azərbaycanda 100 qıza 115 oğlan düşüb. Əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. İndi vəziyyət əksinədir. Belə ki, hazırda Çində bu göstərici 100-110,3 təşkil edir.

Azərbaycanda son onilliklər ərzində nəsilvermədə baş vermiş tənəzzül və dölün cinsinin müəyyən edilməsinə imkan yaradan ultrasəs müayinəsindən geniş istifadə nəticəsində ölkədə oğlan uşaqlarına verilən üstünlük selektiv abortlar vasitəsilə reallaşdırılır. Bu isə doğulan uşaqlar arasında cins nisbətinin ciddi şəkildə pozulmasına səbəb olur. 2022-ci il üzrə doğumu qeydə alınmış 122 846 nəfərdən 64 940-ı oğlan, 57 906-sı isə qız, cinslər arasındakı fərq 7 034 nəfər olub. Cins nisbəti hər 100 qıza 112 oğlan təşkil edib.

2023-cü ilin yanvar-sentyabr aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkə üzrə 85352 doğulan körpə qeydə alınıb. Doğulanlar arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,3 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 46,7 faiz olub.

Bu ilin yanvar ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 8 557 doğulan körpə qeydə alınıb. Doğulan körpələrin 54,6 faizi oğlan uşaqları, 45,4 faizi isə qız uşaqları olub.

BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq. Cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin acınacaqlı nəticələrlə üz-üzə qalması halına gətirib çıxara bilər. Bura gender bərabərsizliyi, zorakılıq, erkən nikah, insan alveri və kriminal səviyyənin artması aiddir. Bu vəziyyətlə qarşılaşmaq istəmiriksə, qızlara dəyər vermək lazımdır. Ədalətli cəmiyyət naminə qızlar üçün bərabər imkanlar yaradılmalıdır".

## "Bəsdi" hökmü

Cəmiyyətimizdə oğlan övladına üstünlüyün verilməsi, onun daha çox arzulanmasıdır. Bu arzunu da həyatımıza daxil olan müasir texnologiyalar "çin" etdi. USM-lər 90-cı illərədək ailələrimizdə doğulan, hətta "ta bəsti" deyilib Bəsti adı verilən qızlarımıza "bəsdi" hökmünü verməyə başladı. O Bəstilər ki, kişi qeyrəti, namusu, zəhmətkeşliyi, ata-ana qədri bilməsi ilə yaddaşlarımıza həkk olunublar. O Bəstilər ki, evlənib həyat yoldaşı ilə uzaq şəhərlərdə yaşamağı seçən oğulların evin altında qalan yaşlı ata-anasının baxıcılarına çevriliblər illərlə. Öz ailələrinin işini bitirib, axşamda-səhərdə ata evinə qaçıb onlara qulluq ediblər. O Bəstilər ki, oğullar ata-ananın cənazəsinə gəlib çıxanadək onların başının üstünü kəsiblər.

Bütün bunları hər birimiz yaşadığımız rayonlarda, şəhər və kəndlərdə qohumlarımız, qonşularımız arasında dəfələrlə müşahidə etmişik. Lakin bütün bunlar eyni zamanda oğlan övladına olan istəyimizi, onlarla qızlarımız arasına qoyduğumuz ayrı-seçkiliyi dəyişə bilməyib. Çünki bizim təfəkkürümüzdə problemlər var. Biz hər zaman düşünmüşük ki, oğul davamçıdır. Maraqlıdır, qız övladı bəs nədir, sonsuzluqdur. Belə çıxır ki, biz qızı övlad hesab etmirik ki, onun da övladını özümüzə davamçı hesab etmirik. Çox təəssüf ki, XXI əsrdə yaşasaq da, hələ də X-XI əsrlərin təfəkküründə qalmaqda, bunu eynilə qəbil etməkdəyik. Bu səbəbdən də hər bir kişi evində ən azından bir oğlan övladı olmasını istəyir, həm də şiddətli dərəcədə istəyir. Odur ki, buna nail olması üçün də bəzən şiddətli hərəkətlər törədir. Həyat yoldaşına qarşı zorakılıq edir, onunla nikaha son qoyur, yenidən ailə qurur. Lakin onu anlamır ki, övlad payını verən Yaradandır. Alın yazın deyilsə, istəyirsən 3 dəfə evlən-boşan. Bunun da dəfələrlə şahidi olmuşuq.

Bəli, elə ki, USM-lər uşaqların cinsini müəyyən etməyə başladı, bu, kişilərimiz və özünü oğlan doğa bilməməkdə günahkar hesab edən qadınlarımız üçün yaxşı bir fürsət oldu.

## USM-lər həm də ailə planlaması işini görür

Statistikaya nəzər salsaq görərik ki, USM-lər ilk zamanlar ailədə 2-3 qız övladı olub oğlan dünyaya gətirmək istəyən qadınlara xidmət edirdi. Bu yolla minlərlə ailə öz oğlan övladı arzusuna çatırdı. Sonralar isə ultrasəs müayinəsi, sözün əsl mənasında, ailə planlaması da çevrildi. Belə ki, bu gün Azərbaycanda selektiv abortların gətirdiyi nəticələr üçün tək kişilər deyil, həm də qadınlarımız təqsirkardır. Çünki qadınlar zaman-zaman ultrasəs müayinəsini ailə planlamasına da çevirdilər. Yəni ilk övladı qızdırsa, daha ikincinin qız olmasına yol vermədilər. İkincini oğlan istəməklə həm həyat yoldaşlarının arzularını gerçəkləşdirdilər, həm də artıq övlada gərək olmadığını düşündülər. Beləliklə, indi hamımız şahidik ki, əksər ailələrdə iki uşaq var: bir qız, bir oğlan. Bunun gələcəkdə bizi böyük problemlərlə üz-üzə qoyacağından hələlik xəbərimiz olmadığı üçün bu cür də davam etməkdəyik.

Yaşlı bir qadın tanıyırdım, mama-tibb bacısı idi. O deyirdi ki, ailədə iki uşaq tamamilə səhv fikirdir. Həmin ailə fikirləşməsin ki, biz dünyaya insan bəxş etdik. İki uşaqdan biri ata, biri anadır. Əgər ailədə üçüncü uşaq varsa, bu, artım sayıla bilər. Nə qədər doğru söylənmiş fikirdir. Dəfələrlə təsadüf etmişik ki, ailələrdə iki övladdan biri ya xəstəlikdən, ya da hansısa qəza nəticəsində dünyasını dəyişir, o biri uşaq evdə tək qalır, bundan böyük travma alır. Bu, həm də uşaqların psixoloji durumuna ciddi təsir göstərir. Öz qardaş və ya bacısını itirən uşaq əgər ailədə üçüncü uşaq olarsa, onunla təsəlli tapar, əks təqdirdə onun vəziyyətini düşünmək heç də çətin deyil. Belə uşaqlar üçün gələcək həyat daha dözülməz olur. Çünki onlar tamamilə tək qalırlar.

Məsələnin bu tərəfi üçün məhz qadınlar günahkardır. Çünki iki övladından birinin oğlan olması ilə kişi artıq ailə üzvlərinin daha da artmasına maraqlı olmur. Lakin qadın həm də anadır. Övladının bu gününü və gələcəyini düşünmək kişilərdən çox, qadınlara bəxş olunan hissdir. Lakin qadınların işlərinin yüngül olması, karyera dalınca getmək, daha çox əziyyət çəkməmək üçün USM-lərin köməkliyi ilə ailə planlaşdırmaları bu kimi problemlər yaradır. O problemlər ki, əhali sayının da, ailədə uşaq sayının da artımına və bunun yaratdığı problemlərə ciddi şəkildə təsir göstərir.

## Oğlun yoxdu-sonun yoxdu, dedilər...

Bizdə oğlan övladına verilən üstünlüyün nəticəsidir ki, zaman-zaman dilimizdə hətta oğlanla bağlı deyimlər, atalar sözləri də yaranmışdır. Məsələn, oğul düşmən çəpəridir, oğul nəslin davamçısıdır, oğul evin direyidir, oğul ata-ananın baş tacıdır və sair belə onlarla deyimlər, atalar sözləri yaranmışdır. Ən dəhşətlisi isə budur ki, ailələrimizdə oğlan doğulmayanda sanki o nəslin, kökün davamının olmadığını düşünürük. Aşağıdakı misralar böyük şairimiz Məmməd Araza da vaxtilə oğlu olmadığı üçün sonsuz deyənlərə qarşı tək şairin düşüncələri deyil, bu düşüncə tərzində olan cəmiyyətə bir giley, bir təəssüf hissi idi.

Oğlun yoxdu - sonun yoxdu, dedilər,
Sağın yoxdu, solun yoxdu, dedilər,
Odun boyda suyun yoxdu, dedilər,
Bu da belə bir ömürdü, yaşadım.

Bir oğlu olmayan qadın və ya kişi rəhmətə gedəndə də yaxınları onu "oğulsuz canına mən qurban olaram" deyib ağlayırlar. Və yaxud da Yaradana asi düşərək, "Allah, nə deyim sənə, buna da bir şirin pay verərdin də", - deyirlər.

Onu da çox böyük təəssüf hissi ilə vurğulamaq istəyirəm ki, bizdə oğlan uşağına, şirin pay, deyirlər. Mən bunu əvvəlki yazılarımda, hətta felyetonlarımda da dəfələrlə vurğulamışam. Bəs görəsən qızlar necə, acı paydır?..






## Nə qədər ki, selektiv abortlar var...

Selektiv abortlar insanlığa qarşı haqsızlıq, təhqirdir. Qadınla kişi arasında bərabərliyə zidd, ən təhlükəli vasitədir. Hansı ki, buz Gender bərabərliyindən danışırıq, lakin bu bərabərliyi pozan birinci amil selektiv abortlardır.



Selektiv abortların çoxalmasında, dünyada ölkəmizi birinci etməsində, oğlan və qız balansının pozulmasında, bunun gələcəkdə böyük problemlərə səbəb olmasında hər birimiz günahkarıq. Biz illər öncədən bu xalqa məxsus milli adət-ənənələrdən yola çıxmalıydıq. Bu yolda insanlığa balta çalan bu yeniliyi baltalamalı, onun inkişafının, yayılmasının qarşısını almalıydıq.

Bu gün son illərin statistikasına nəzər salanda bütün illərdə doğulan uşaqlar arasında oğlanların qızlardan artıq olmasını müşahidə edirik. Bunun yaratdığı problemlər isə artıq hiss olunmaqdadır. Yaxın gələcəkdə isə bu problemin ağırlığı çiyinlərimizi yara edəcək. Bu gün Azərbaycanın selektiv abortlara görə dünyada irəlidə olması artıq səhiyyə sistemində təbilin çalınmasının vaxtının çatdığını göstərir. Selektiv abortlar indiyədək niyə qadağan olunmayıb? Görəsən bunun qarşısını nə kəsib? Kiminsə haqqı deyil dünyaya gətirəcəyi uşağın cinsini əvvəlcədən bilsin. Heç kimin də bunu bilməməklə hüququ pozulmur. Bəs belə isə bu növ abort nə üçün qadağan olunmur?

Oğlanların sayı artır, qızların sayı dəfələrlə azalır. Biz gələcəkdə ana olacaq qız tapa bilməyəcəyik. Düşünürəm ki, bütün həkimlər, mütəxəssislər bu çağırışımıza səs verər, selektiv abortlar qadağan edilər. Son olaraq onu demək istəyirəm ki, bizim Bəstilər, Yetərlər, Qızbəstilər başımızı heç vaxt aşağı etməyiblər. Qoy onların davamçıları olan qızlarımız doğulsun...

***Mətanət Məmmədova***



# Memorandum diplomatiyası

## Yaxud, İstanbulda Moskva-Kiyev danışıqlarından gözləntilər

**İstanbulda Rusiya-Ukrayna danışıqları rəsmən təsdiqlənəndən sonra bütün diqqət Türkiyəin qədim şəhərinə yönəlib. Müharibə tərəflərinin bu kimi təmasları keçmiş təcrübəni bir daha xatırladır. ABŞ prezidenti Donald Tramp da İstanbulda keçiriləcək danışıqların ikinci raundunu ümidverici adlandırmır. Tərəflər bir-birlərinə tələblərini ifadə edən sənədlər toplusunu - memorandum mübadiləsini planlaşdırır. Eyni zamanda, Ukraynanın tələblərinin siyahısı ABŞ-la sıx təmasda tərtib edilib. Amerika tərəfinin ikinci raundun Vatikana keçməsinə nail olmaq üçün etdiyi yarıtmaz cəhdlər nəticəsiz qaldı. Bazar gününə olan məlumatlara əsasən, nəinki danışıqların yeri, hətta onların iştirakçılarının tərkibi də dəyişdirilməyəcək.**

Rusiya nümayəndə heyəti artıq iyunun 1-də İstanbula uçub. Rusiya Federasiyası Prezidentinin köməkçisi Vladimir Medinski qrupa rəhbərlik edir. Öz növbəsində, Ukrayna prezidenti Vladimir Zelenski Ukrayna nümayəndə heyətinin İstanbula gələcəyini təsdiqləyərək, müdafiə naziri Rustem Umerovun rəhbəri təyin edib. Danışıqların birinci raundunda da eyni nümayəndə heyətlərinin rəhbərləri iştirak edirdilər. Zelenski bazar günü Xarici İşlər Nazirliyi və təhlükəsizlik orqanlarının rəhbərliyi ilə görüş keçirib, bundan sonra Ukraynanın danışıqlarda müdafiə edəcəyi məqamlar "tam və qeyd-şərtsiz atəşkəs", məhbusların azad edilməsi və "oğurlanmış uşaqların geri qaytarılması"dır. "Etibarlı və davamlı sülh" yaratmaq və "təhlükəsizliyi təmin etmək" üçün Zelenski "ən yüksək səviyyədə görüş hazırlamağı" təklif edib. Mayın 30-da Türkiyənin xarici işlər naziri Hakan Fidan bildirib ki, müəyyən şərtlər daxilində Rusiya və Ukrayna prezidentlərinin hipotetik görüşünün yeri İstanbul ola bilər.

Lakin danışıqların bu mərhələsi barədə indi danışmaq ən azı tezdir. Rusiya Ukrayna ilə dialoqun ikinci raundunda memorandum müzakirəsindən başqa bir şeyin mümkün olduğunu deməyib. Ukrayna və Rusiya hər bir tərəfin nəyə nail olmaq niyyətində olduqlarını əks etdirən memorandum layihələrini təqdim edəcəklər. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya layihəsi əvvəlcədən ictimaiyyətə açıqlanmayacaq.

ABŞ prezidentinin xüsusi nümayəndəsi Keyt Kelloq ABC telekanalına ukraynalıların danışıqlarda hansı taktikadan istifadə edəcəyini anlamağa kömək edə biləcək mühüm müsahibə verib. Trampın komandasında o, rəsmi Kiyevlə təmaslara cavabdehdir. Kelloq Umerovla söhbətini danışıb. Buradan belə nəticə çıxır ki, hətta Zelenski onları açıq-aşkar səmərəsiz hesab etsə belə, amerikalılar ukraynalıların Rusiya ilə danışıqlarda iştirak etmələrində təkid edirlər. "Ciddi olduğunu göstərməlisən", Kelloq Umerova deyib. Xüsusi nümayəndənin sözlərinə görə, ABŞ nümayəndələri gələn həftə İstanbula gələcəklər. Bu özlüyündə xəbər deyil. The Wall Street Journal xəbər verir ki, Kelloq və dövlət katibi Marko Rubionun İstanbulda olacağı gözlənilir. Yeni olan odur ki, Almaniya, Böyük Britaniya və Fransadan milli təhlükəsizlik müşavirləri eyni vaxtda İstanbul şəhərində olacaq. Kelloqun sözlərinə görə, "onlar bizə müəyyən dərəcədə Ukraynadan tələblərin siyahısını formalaşdırmağa kömək etdilər". Beləliklə, məlum olur ki, Ukrayna nümayəndə heyəti öz memorandumunu deyil, aparıcı Qərb ölkələrindən tələblər irəli sürəcək.

Ümumiyyətlə, Kelloqun son vaxtlar verdiyi müsahibələr onun ifadəsinin səmimiliyi ilə heyran qalıb. Belə ki, o, "Fox News" telekanalı ilə söhbətində Rusiyanın NATO ilə proksi müharibəsi vəziyyətində olduğunu etiraf edib. Kelloqun dediyi kimi, "düzünü desəm, müəyyən mənada bu doğrudur". ABC News-a müsahibəsində o, həmçinin təkrar edib ki, Ağ Ev Qərb tərəfindən Rusiyaya məqbul güzəşt hesab edir - Ukraynanın Avro-Atlantik inteqrasiyası kursundan imtina edir. "Biz dəfələrlə demişik ki, Ukraynanın NATO-ya daxil olması məsələsinə baxılmır", - Kelloq xüsusilə deyib.

Bundan əvvəl Tramp demişdi ki, iki həftə ərzində "Rusiyanın dinc niyyətlərinin səmimiliyinə" münasibətini müəyyən edəcək. Əlbəttə, xatırlatmaq lazımdır ki, Amerika prezidenti nəticə əldə etməsə, sülh prosesindən imtina edəcəyi vaxtları dəfələrlə qeyd edib. Ola bilsin ki, Trampın elan etdiyi iki həftə Rusiya-Ukrayna münaqişəsini bir gündə bitirmək barədə əvvəlki vədi ilə eyni ritorik məşq olacaq. Və ya bəlkə də yox. Hər halda, iki həftə ərzində Rusiya-Ukrayna dialoqunun müəyyən nəticələrə gətirib çıxarması Tramp üçün çox arzuolunan olardı. ABŞ-da 14 iyun Bayraq Günüdür, bu bayram Trampın Vaşinqtonda möhtəşəm parad keçirəcəyini və həmçinin çıxış edəcəyini vəd edib. Bundan əlavə, ABŞ-ın hazırkı prezidenti iyunun 14-də anadan olub. Ona görə də Tramp Rusiya və Ukraynanın ona ən azı hansısa razılaşma şəklində "hədiyyə" verməsində çox maraqlıdır.

### Və nəhayət...

Rusiya və Ukrayna nümayəndə heyətləri Ukraynada nizamlanma üzrə birbaşa danışıqların ikinci raundunun keçiriləcəyi İstanbul Çırağan Sarayına gəliblər. Danışıqların Moskva vaxtı ilə saat 13:00-da başlaması planlaşdırılırdı. Bazar ertəsi danışıqların keçiriləcəyi Çırağan Sarayının ərazisinə daxil olan Ukrayna kortejində səhra geyimində bir neçə nəfəri görmək mümkün olub. Ukrayna nümayəndə heyəti hadisə yerinə Moskva vaxtı ilə saat 12:47-də çatıb. Rusiya korteji saat 12:40 radələrində əraziyə daxil olub. Bundan əvvəl Türkiyə tərəfinin nümayəndələri saraya gəlib.

Daha əvvəl Türkiyə Xarici İşlər Nazirliyi ölkənin xarici işlər naziri Hakan Fidanın açılış nitqi ilə çıxış edəcəyini bildirmişdi. Türkiyə nümayəndə heyətinin danışıqlar yerində qalacağı gözlənilir. Moskva Kiyevlə atəşkəs şərtləri ilə bağlı memorandum mübadiləsi aparmaq və gələcək sazişin bəndlərini müzakirə etməyə başlamaq niyyətində olduğunu bildirib. Ukrayna ilə danışıqlarda Rusiya nümayəndə heyətinə başçılıq edən Rusiya prezidentinin köməkçisi Vladimir Medinski bildirib ki, Rusiya münaqişənin sülh yolu ilə həllinə dair memorandumun Ukrayna variantını alıb. Rusiya tərəfi öz versiyasını birbaşa görüşdə təqdim edəcəyinə söz verib. Məzmununu bir gün əvvəl Reuters-in dərc etdiyi Ukrayna memorandumu "havada, quruda və dənizdə ilkin şərt olmadan tam atəşkəs", Kiyevin neytrallığı qorumaqdan imtina etməsini, həmçinin Ukrayna üçün təhlükəsizlik zəmanətlərini nəzərdə tutur.

Rusiya və Ukrayna arasında son üç ildə ilk birbaşa danışıqlar mayın 16-da İstanbulda keçirilib. Tərəflər münaqişənin nizamlanması şərtləri ilə bağlı memorandumlar layihəsinin hazırlanması və daha sonra dialoqun davam etdirilməsi barədə razılığa gəliblər. Moskva və Kiyev "1000-ə 1000" formatında ən böyük məhbus mübadiləsi haqqında da razılığa gəliblər. Bir neçə gün sonra Vladimir Putin və Donald Tramp telefonla danışıqların nəticələrini müzakirə ediblər.

**V.VƏLİYEV**

# Siyasi gücə və iqtisadi inkişafa malik olan Azərbaycan

**"Bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır." Bunu iyunun 2-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxışı zamanı deyib.**

Xəzər regionunda enerji sektorunun ən böyük tədbiri - Beynəlxalq Xəzər Neft və Qaz "Caspian Oil and Gas" sərgi və konfransı öz 30 illik yubileyini qeyd edərək Bakı Ekspo Mərkəzində keçirildi. Hər il keçirilən "Caspian



*Əbilfəz MAHMUDOV*
*Energetik*

Oil and Gas" neft-qaz sahəsinin ən yüksək səviyyəli rəhbər və mütəxəssislərini bir araya gətirir.

Birinci sərgi 1994-cü ildə, elə həmin ilin sentyabr ayında Xəzər hövzəsində karbohidrogen ehtiyatlarının genişmiqyaslı işlənilməsinin əsas istiqamətlərini müəyyən edən və ölkəmizin neft tarixində yeni səhifə açan "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində keçirilib. Azərbaycanda ilk ixtisaslaşdırılmış neft-qaz sərgisinin təşəbbüskarı, qlobal neft-qaz şirkətlərini Azərbaycan neft-qaz sənayesinin inkişafına cəlb etmək üçün bu sərgini yaxşı platforma hesab edən Ümummilli Lider Heydər Əliyevdir. O vaxtdan etibarən, "Caspian Oil and Gas" sərgisi neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü və memorandumların, habelə gələcək əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı meydançaya çevrildi. Sərgi və konfrans iştirakçıları arasında qlobal neft və energetika sektorunun aparıcı şirkətləri yer alır. Keçirildiyi illər ərzində sərgidə dünyanın 70-dən çox ölkəsini təmsil edən təxminən 7500 şirkət iştirak etmişdir. Sərginin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirak etməsi sərginin yüksək statusunu bir daha təsdiq edir. Həmçinin, "Caspian Oil & Gas" sərgisinə Azərbaycan Respublikası Energetika Nazirliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən də son dərəcə mühüm dəstək göstərilir.




Azərbaycanın enerji sahəsində bu gün qazandığı uğurlar, beynəlxalq miqyasda qazandığı nüfuz və sabit inkişaf xətti birbaşa olaraq ümummilli Lider Heydər Əliyevin uzaqgörən baxışları və strateji qərarlarının nəticəsidir. 1994-cü ildə keçirilən ilk Xəzər Neft və Qaz Sərgisindən dərhal sonra imzalanan və "Əsrin müqaviləsi" adlandırılan beynəlxalq neft sazişi, Azərbaycanın yalnız enerji sektorunda deyil, ümumilikdə geosiyasi xəritədə də yerini və gücünü dəyişdi. Həmin dövrdə ölkənin iqtisadi və sosial vəziyyəti son dərəcə ağır idi - iflic olmuş iqtisadiyyat, vətəndaş qarşıdurmaları, min faizlə ölçülən inflyasiya və yüz minlərlə qaçqın və məcburi köçkün. Lakin Ulu Öndər Heydər Əliyev bu qaranlıq mənzərəyə baxmayaraq, Azərbaycanın gələcəyini enerji təhlükəsizliyi və beynəlxalq əməkdaşlıqda görürdü.

Bu strateji yanaşma bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan artıq sabit siyasi sistemə və müstəqil iqtisadiyyata malik bir dövlətdir. Neft və qazın ÜDM-dəki payı 30 faizdən artıqdır. Xarici borcun aşağı səviyyədə olması və maliyyə ehtiyatlarının çoxluğu ölkənin dayanıqlığını təmin edir. Enerji siyasətində yalnız hasilat deyil, həm də bərpaolunan enerji mənbələrinə keçid əsas prioritetlər sırasındadır. 2030-cu ilə qədər 6,5 giqavat gücündə yaşıl enerji istehsalı nəzərdə tutulur.

Cənub Qaz Dəhlizi kimi nəhəng layihələr sayəsində Azərbaycan artıq Avrasiyanın enerji xəritəsində mühüm bir mərkəzə çevrilib. Bu gün ölkəmiz 12 ölkəyə qaz ixrac edir və bu say inkişaf edən xətlə artmaqdadır. Eyni zamanda, yaşıl enerji təşəbbüsləri ilə COP29 kimi qlobal platformalarda lider mövqe nümayiş etdirilir. COP29-un "Bakı sıçrayışı" adlandırılması və İtki və Zərər Fondunun artırılması Azərbaycanın beynəlxalq miqyasda məsuliyyətli aktor kimi tanındığını göstərir.

Cənab Prezidentin dediyi kimi "COP29-la bağlı daha bir hədəfimiz Qlobal Cənub və Qlobal Şimal arasında körpünün qurulması idi və biz buna nail ola bildik. Hədəf ətraf mühiti ən çox çirkləndirən ölkələr, - inkişaf etmiş ölkələr, - və bundan əziyyət çəkən, hətta bəzilərinin mövcudluğuna təhlükə olan inkişafda olan ölkələr arasında etimadın artırılması idi. İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə yardım paketi də COP29-da elan edildi və biz köməyimizə ehtiyacı olan ölkələrə dəstək verməyə davam edəcəyik."

Nəticə olaraq, bu uğurların təməli hələ 90-cı illərin əvvəllərində Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdu. Onun gələcəyə baxan, qətiyyətli, inamlı və milli maraqlara söykənən siyasəti sayəsində Azərbaycan bu gün təkcə regionun deyil, bütün dünyanın enerji təhlükəsizliyində mühüm rol oynayan bir ölkəyə çevrilmişdir. Bu baxış və siyasi uzaqgörənlik bu gün də Azərbaycanın enerji gələcəyinin təminatıdır.



FELYETON

# İndi biz nə edək?..

-Həqiqətən, indi biz nə edək? Nə edəcəyik ki, papağımızı qoyaq qarşımıza fikirləşək.

-Nə fikirləşək?

-Nə fikirləşəcəyik ki? Ən vacib olanı.

-Niyə ən vacibi nədir ki?

-Ən vacibi uşaqlarımızın tərbiyəsidi.

-Mən də fikirləşirəm ki, nə deyəcəksən. Uşaqlarımızın tərbiyəsinə nə olub ki?

-Nə olub? Bilmirsən nə olub? O olub ki, indi elə uşaqlarımız var ki, məktəblərdə min bir hoqqadan çıxırlar. Dərsi pozur, müəllimi saymır, dil deyir, tərbiyəsizlik edirlər.

-Əstəğfürullah. Mənim uşağım əsla bunu etməz. Mənim nəzarətim daim onun üstündədir. Sən bu söhbəti qonşum Həsənin yanında aç.

-Həsən kişi, indi biz nə edək?

- Nəyi nə edək, a bala?

-Deyirəm bəlkə bu uşaqlarımıza bir az tərbiyə verək?

-Nə olub ki, uşaqlarımızın tərbiyəsinə? Heç onlardan tərbiyəli uşaq var? Get gör xalxın uşaqları nə oyundan çıxır. Odur ey, Hüseynin uşaqları. Deyir böyük oğlu o gün məktəbdə az qalırmış müəllimi döysün.

-Hüseyn əmi, indi biz nə edək?

-Nəyi nə edək, açıq danış görək!

-Bu uşaqlarımıza bir az tərbiyə vermək lazımdır. Məktəbədək yolda çantaları ilə futbol oynayırlar. Məktəbdə səs-küy yaradırlar. Bir-birilərinə kitab-dəftər çırpırlar. Tənəffüzdə məktəbin dəhlizləri dağılır. Müəllimlər giley edir. Dərsi pozurlar. Uşaqların elm və tərbiyə öyrənməsinə mane olurlar.

-Mənə niyə deyirsən bu sözləri? Məgər mənim övladlarım sənin dediklərinin birini edərsə, basıb gözlərini oymaram? Mənim tərbiyəm tərbiyədir ey... Sən ünvanı səhv salmısan, get mənim qonşum Valehə de bu sözləri. O gün oğlu dərsdə ayağını qaldırıb qoyubmuş partanın üstünə, müəllim də endirə bilməyib.

-Valeh əmi, indi biz nə edək?

-Suala bax, nəyi nə edək?

-Deyirəm bəlkə uşaqlarımıza azacıq tərbiyə verək. Deyəsən çox əzizləmişik bunları, məktəbdə özlərini tamamilə itirirlər. Nə etdiklərini bilmirlər.

-Mənim uşaqlarım... Mənim uşaqlarım haqda deyirsən bunları? Ayıb olsun sənə. Mənim övladlarımın tərbiyəsindən bütün məktəb danışır. Buna bax, get, birinci öz uşaqlarını tərbiyə elə. Bir də qonşun var ey, Nəsib, onunla danış bu barədə. Qızı müəllimlə dil-dil ötür. Bir sözün qarşısına beşini deyir.

-Nəsib qardaş, nə var, nə yox. Görəsən indi biz nə edək?

-Nə edəcəyik ki... Nə lazımdır, onu edək. Neçə ildir qonşuyuq, hansı işdən kənar qalmışıq ki? Sadəcə belə başa düşmürəm ey, nə istəyirsən?

-Nəsib qardaş, istəyim odur ki, uşaqlarımıza bir az tərbiyə verək. Məktəblərdə lazımsız hərəkət edirlər. Müəllimlərin canını boğazına yığırlar. Çəkil o yana, demək olmur, valideynlər hücum çəkir məktəbə, müəllimləri internetə çıxarır, ağızlarına gələni danışırlar. Belə olmaz axı, başqa uşaqların da dərsini pozur, tərbiyələrinə təsir edirlər.

-Dayan, dayan, bunları mənə niyə deyirsən? Bəyəm mənim uşaqlarım haqqında nə isə eşitmisən? Kimin uşağının tərbiyəsi yoxdur, getsin əziyyət çəksin, tərbiyəsini versin. Mənim uşaqlarımı bütün el-aləm tanıyır, hamı onların başına and içir. Bura bax, sənin xətrini bir qonşu kimi istəyirəm. Belə sözlər danışma, xətrinə dəyərəm. Uşaqlar görməmisən ey, odur, Cəfərin uşaqları, tərbiyə nədir, bilmirlər. Sən Cəfərə ver bu sualı.

-Cəfər əmi, indi biz nə edək?

-Nə etməliyik ki?

-Uşaqlarımızla məşğul olaq. Onlara vaxt ayıraq, deyirəm. Bu uşaqlar tamam ağ edirlər, vallah. A kişi, sizin dövrünüzdə uşaq müəllimlə bu cür davranardı heç? Hörmət vardı, saygı vardı. Uşağın uşaq yeri vardı, müəllimin müəllim yeri vardı. İndi bəzi uşaqlar heç bilmirlər ki, nə hərəkət edir, nə danışırlar. Deyirəm, biz üzərimizə düşəni edək. Uşaqlarımıza tərbiyə verək. Onları başa salaq. Axı bizim mentalitetimiz, ənənələrimiz var. Bu uşaqların hərəkətləri bunların heç birinə sığmır axı...

-Gözləməzdim səndən. Çox incidim. Özgəsi olsaydın, salardım səni şillə-şapalağın altına. Deyərdim ki, sən kimsən ki, mənim uşaqlarım haqqında belə danışırsan, niyə tanımırsan onları? Peyğəmbər övladı kimi uşaqlardı. Dilləri yox, ağızları yox. Oxumaqdan heç başlarını qaldırırlar ki, bilələr də ki, şuluq nədir? Həqiqətən qəlbimə qəydin. Əsla gözləməzdim səndən. Yenə deyirəm, başqası olsaydı, indi çoxdan ağzımı açıb, gözümü yummuşdum. Heç kim mənim övladlarımı dilinə gətirib, onların haqqında söz söyləyə bilməz. Mən buna icazə vermərəm. Onları mən tərbiyə etmişəm. Mənə də oxşayırlar. Heç bir artıq hərəkətləri ola bilməz. Bunu sənə müəllimlər deyirlərsə, yalan danışırlar. Günah onların özlərindədir. Dayan, qoyacağam ayağımı o məktəbə. O müəllimlərin başına bir oyun açım ki, atalarının toyu yadlarına düşsün. Yəqin onlar yuxularını sayıqlayıblar sənə. Yox, mənim uşaqlarımı kimlərləsə qarışdırıblar. Nə yaxşı Cavadın, Mürsəlin, Pənahın uşaqlarını demirlər, mənimkiləri deyirlər? Lənət şeytana... Sən get onlara ver bu sualını, bildin, onlara...

***

Hə, anladım, həm də yaxşı anladım ki, məktəblərdə bəzi uşaqlar niyə at oynadırlar...

Lakin hələ də sualıma cavab tapa bilməmişəm: indi biz nə edək?

***Mətanət Məmmədova***

# Karyera və ailə arasında SEÇİM

***Karyera seçimi gələcəyə təsir edən ən mühüm qərarlardan biridir. Bu seçimi təsirləndirən bir çox amil mövcuddur. Bu amillərdən biri də ailənin təsiridir. Xüsusilə ilkin dövrlərdə ana-uşaq münasibətləri karyera seçiminə əhəmiyyətli dərəcədə təsir edir. Ana ilə uşaq arasındakı bağ, uşağın gələcək karyerasına birbaşa təsir göstərir.***

## Karyera seçimində ailə münasibətləri nə ifadə edir?

Əvvəlcə şəxsin psixoloji durumu aydınlaşdırılmalıdır. Yəni onun emosional vəziyyəti, hissləri və ümumi sağlamlıq durumu təhlil edilməlidir. Daha sonra isə şəxsin maraq sahələri və bacarıqları nəzərə alınmalıdır. İnsanların sağlam bir həyat tərzinə malik olub-olmaması ilkin mərhələdə dəyərləndirilməli olan məsələlərdəndir. Sonrakı mərhələdə karyera seçiminə təsir edən ailə münasibətləri araşdırılır.










## Proses boyunca psixoloji durum niyə bu qədər vacib sayılır?

Şəxsin psixoloji durumu, əslində, karyera baxımından bir əsas olaraq qəbul edilə bilər. Ruhən və emosional cəhətdən sağlam olmayan bir insan, yüksək bacarıqlara sahib olsa belə, effektiv nəticə əldə edə bilmir. Dünyada bu vəziyyətdə olan çox sayda məşhur insan nümunəsi var. Bu gün çox qadın həm işləyir, həm də ana olur. Yəni səhərdən axşama qədər işdə çalışır, evə gəlib uşaqla məşğul olur, yemək bişirir, ev yığışdırır, dərs etdirir. Onlar həm evin işlərini görür, həm də ailəsinə baxırlar. Bu, asan deyil.

## İş və ailə arasında qalmaq

İşləyən analar bəzən çox yorulur. İşdə rəhbərin gözləntiləri var, evdə isə övladın ehtiyacları. Ana çalışır ki, heç bir tərəfi yarımçıq qoymasın. Amma bu hər zaman mümkün olmur. Bəzən uşağına az vaxt ayırdığı üçün narahat olur, bəzən də işdə tam diqqətli ola bilmir.



## Uşaqlar üçün nə deməkdir?

Bəziləri deyir ki, işləyən anaların uşaqları diqqətsiz qalır. Amma bu, hər zaman belə deyil. Əgər ana uşağı ilə vaxt keçirməyi bacarırsa, onun üçün həm ana, həm də gözəl nümunə olur. Belə uşaqlar çox vaxt daha müstəqil, bacarıqlı böyüyürlər.

## Analara dəstək lazımdır

İşləyən analar təkbaşına hər şeyin öhdəsindən gəlməyə çalışır. Onlara kömək lazımdır:

* Dövlət uşaq baxçalarını əlçatan etməlidir.

* İş yerləri analara uyğun iş saatı təklif etməlidir.

* Ailələr, xüsusilə atalar, analara dəstək olmalıdır.

## Anaların psixoloji durumu

Bəzən işləyən analar "uşağıma az vaxt ayırıram" deyə özünü günahkar hiss edir. Amma unutmamalıyıq: xoşbəxt və güclü ana - sağlam və xoşbəxt uşaq deməkdir. Ana işləməklə həm ailəsinə maddi dəstək verir, həm də övladına yaxşı nümunə olur.

## Analar üçün rahat İş saatları - sadə təkliflər

**Qısa iş günü**

* Gündə 8 saat yox, məsələn 4-5 saat işləsin.

* Ana həm işini görsün, həm də uşağına vaxt ayıra bilsin.

**Dəyişən saatlar**

* Hər kəs eyni vaxtda işə getmək məcburiyyətində olmasın.

* Ana özü seçsin: məsələn, saat 9-da yox, 10-da işə başlasın.

* Beləliklə, uşağını məktəbə aparıb rahat işə çata bilir.

**Ev şəraitində işləmək**

* Ana evdən çıxmadan, kompüterlə, telefonla işini görə bilər.

* Uşaq evdədirsə, ona da nəzarət edə bilir.



* Bu, xüsusilə ofis işləri üçün çox rahatdır.

**Həftədə az gün işləmək**

* Hər gün yox, məsələn həftədə 3-4 gün işə getsin.

* Digər günlərdə həm dincəlsin, həm də uşaqla vaxt keçirsin.

**Uşağa uyğun iş saatı**

* Ana uşaqla eyni vaxtda işdən çıxa bilsin.

* Məsələn: uşaq bağçadan saat 5-də çıxırsa, ana da saat 15:30-da işdən ayrılsın.

**Əlavə dəstək nə ola bilər?**

* İş yerlərində uşaq otaqları yaradılsın.

* Doğuşdan sonra analara rahat iş rejimi verilsin (az saat, evdən işləmək və s.).

* Analara qarşı anlayış göstərilsin - çünki onlar həm işləyir, həm də ana kimi yorulmadan çalışırlar.

***Ayşən Vəli***

# 4 İyun Gəncə qiyamından ötən 32 il



Ötən əsrdə 71 il sovet rejimində yaşayan Azərbaycan yenidən müstəqilliyinə qovuşdu. Mücadilə yolu ilə, tökülən qanlar bahasına yenidən müstəqilliyini qazandı. Müstəqillik asan əldə olunmadı, gərgin ictimai-siyasi vəziyyət və böyük qurbanlar bahasına əldə edildi. Tarixi ədaləti bərpa edildi. 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Tarixi reallıqlar, bir daha göstərdi ki, 71 illik sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularının üstündən xətt çəkə bilmədi. XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə malik olmaq arzusu, özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi.

Azərbaycanı gözü götürməyən qüvvələr xalqımızın uğrunda ardıcıl mübarizə apardığı milli azadlığına, dövlət müstəqilliyinə mane olmaq və onun mübarizə əzmini qırmaq üçün ən məkrli siyasi təxribatlara əl atdılar. Ermənistanın Azərbaycan torpaqlarının işğalı, respublikamızı daxildən parçalamaq və xalqımızı vətəndaş müharibəsi girdabına sürükləmək kimi cəhdləri Azərbaycanı olduqca çətin bir vəziyyətlə üz-üzə qoydu. Çünki hakimiyyətdə olan səriştəsiz rəhbərlər mövcud təhlükələrin qarşısının alınması istiqamətində lazımi tədbirləri görmək gücündə deyildilər.

Azərbaycan tarixinin çətin ağır illərində yaşadığı ictimai-siyasi hadisələr onu məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdur. Bu uzaq tarixi keçmişimiz deyil, müstəqilliyimizin ilk illərinin tarixi gerçəklikləridir. O illər idi ki, Azərbaycan dilemma qarşısında qalmışdı. Həm xaricdən, həm də daxildən müxtəlif düşmən qüvvələrin təsiri altında parçalanma ərəfəsində qalan Azərbaycanın müdrik rəhbərə, böyük şəxsiyyətə böyük ehtiyacı yaranmışdır. İdarəçilikdə olan səbatsız, təsadüfi insanlar ölkəni acınacaqlı bir vəziyyətə salmışdılar. Vətəndaş müharibəsi təhlükəsi ilə qarşılaşmış ölkəmizi müdrik siyasətçi Ulu Öndər Heydər Əliyev vəziyyətdən çıxardı.

Əlbəttə ki, bu gün 1993-cü ilin iyununda baş vermiş hadisələri yenidən təəssüf hissi ilə xatırlayırıq. Çünki həmin vaxtlar XX əsrdə ikinci dəfə öz müstəqilliyini qazanmış Azərbaycan məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Azərbaycanı gözü götürməyən qüvvələr xalqımızın uğrunda ardıcıl mübarizə apardığı milli azadlığına, dövlət müstəqilliyinə mane olmaq və onun mübarizə əzmini qırmaq üçün ən məkrli siyasi təxribatlara əl atdılar. Ermənistanın Azərbaycan torpaqlarının işğalı, respublikamızı daxildən parçalamaq və xalqımızı vətəndaş müharibəsi girdabına sürükləmək kimi cəhdləri Azərbaycanı olduqca çətin bir vəziyyətlə üz-üzə qoydu. Çünki hakimiyyətdə olan səriştəsiz rəhbərlər mövcud təhlükələrin qarşısının alınması istiqamətində lazımi tədbirləri görmək gücündə deyildilər.

## AXC-MÜSAVAT HAKİMİYYƏTİNİN İFLASI

O vaxt Azərbaycan əhalisi artıq iqtidardakıların hansı qabiliyyətin sahibi olduğunu yaxşı bilirdi. Ona görə də AXC-Müsavat cütlüyü 1993-cü ilin yayında baş verən hadisələr zamanı ictimai dəstəkdən tamamilə məhrum olmuşdu. Elə xalqın dəstəyini itirdiklərinə görə də hakimiyyətdən getməli oldular. İqtidarda olanlar Azərbaycanın parçalanmasına, dağılmasına, torpaqlarımızın düşmən işğalına məruz qalmasına göz yumaraq var-dövlət yığmaqla, ölkəni talamaqla məşğul idilər. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətinin rəhbərliyində olması bütün təhlükələrin qarşısını almağa imkan verdi və qısa zamanda problemlərin aradan qaldırılması istiqamətində intensiv addımlar atılmağa başlandı. Separatçıların cənub bölgəsində qondarma



"Talış-Muğan respublikası" yaratması, S.Hüseynovun ali hakimiyyət postunu ələ keçirmək üçün yeni planlar qurması, Azərbaycana xaricdən təzyiqlərin güclənməsi, ölkədə faktiki olaraq vətəndaş müharibəsinin başlanması 1993-cü ilin siyasi mənzərəsini dolğun şəkildə əks etdirirdi. 1993-cü ilin yayında ölkədə vəziyyət getdikcə ağırlaşdı, hətta müstəqilliyimiz təhlükə altında idi. Hakimiyyət strukturlarına, o cümlədən, silahlı birləşmələrə nəzarəti itirən o zamankı Azərbaycan iqtidarı isə, 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üzüzə qoydu. Artıq bir sıra ərazilərdə - Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda bəzi silahlı birliklər separatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər. 4 iyun 1993-cü ildə Gəncədə Azərbaycan Ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş verib. S.Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı həyata keçirilən əməliyyat uğursuz olub. Məlum hadisə nəticəsində hökumətə tabe olmayan hərbçilərlə hökumət qüvvələri arasındakı toqquşmada, ümumilikdə, 35 nəfər həlak olmuşdu. Gəncə hadisələri kimi tarixə düşən 4 iyun hadisələri AXC-Müsavat hakimiyyətinin iflası ilə nəticələndi. 1993-cü il iyunun 4-də Gəncədə baş vermiş faciə əvvəlcədən hazırlanmış, cinayət törətmiş hərbi əməliyyatların ağır nəticəsidir.

## "1993-CÜ İLİN İYUN AYINDA AZƏRBAYCANDA BÖYÜK DÖVLƏT BÖHRANI YARANDI"

Gəncəyə göndərilmiş hökumət rəsmiləri S.Hüseynovun dəstəsi tərəfindən girov götürülüblər. Bu hadisə Azərbaycanda dərinləşməkdə olan hərbi-siyasi böhranı kritik həddə çatdırıb və ölkə vətəndaş müharibəsi astanasına gətirilib. 8 iyun 1993-cü ildə Gəncə hadisələri ilə bağlı ölkədə böhran dərinləşib. S.Hüseynovun tabeçiliyindəki silahlı birləşmələr Gəncəbasar bölgəsində yerli hakimiyyət strukturlarını devirərək, Bakıya doğru hərəkət etməyə başlayıblar. Vətənin bu ağır günündə xalq Ulu Öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət edir. Ümummilli Lider Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəlib və qısa zaman ərzində, Azərbaycanda vətəndaş müharibəsinin qarşısını alıb. Görkəmli dövlət xadimi Heydər Əliyev o dövrün Azərbaycanını belə xarakterizə edirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərakat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı təhlükədən xilas etdi. O dövrdə baş verən hadisələr bir daha tarixi gerçəkliyi üzə çıxarmış olur. Belə ki, 1993-cü ilin iyununda xalqın dəvəti ilə Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycanın müstəqilliyindən söhbət açmaq mümkün olmayacaqdı.

## YENİ TARİXİMİZİN QARA LƏKƏLƏRİ

Məhz xalqın belə bir ağır məqamında dünya şöhrətli siyasətçi Ulu Öndər Heydər Əliyevin öz müqəddəs xilaskar missiyasıyla böyük siyasətə qayıdışı, Azərbaycanda illərlə davam edən anarxiyaya, siyasi hakimiyyətsizliyə, hərbiləşmiş cinayətkar dəstələrin qətl və özbaşınalıqlarına son qoymuş oldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri ən yeni tariximizin qara ləkələri kimi keçmişə həkk olunub. Bu təxribatlar müdrik dövlət başçımızın son dərəcə tədbirli, təmkinli və uzaqgörən siyasəti sayəsində baş tutmadı. Beləliklə, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onun itirilməsinə yol vermədi. Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin varlığını qorudu və Azərbaycan qarşısında tarixi bir missiyaya imza atdı. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaratdı. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev, qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu.

## VERİLƏN VƏD ƏMƏLDƏ

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, Azərbaycan bu gün öz inkişafının ən sürətli dövrünü yaşayır. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilib və Onun əbədiliyi təmin edilib. Ulu Öndərin quruculuq və inkişaf xəttinin davamçısı olan Prezident İlham Əliyev Onun siyasi kursunu uğurla davam etdirməklə, ölkəmiz sabitliyin və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevrilib. Müasir dünyada Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uğurlu xarici siyasət xəttini davam etdirir,



beynəlxalq aləmdəki mövqeyini artıraraq, bu münasibətləri möhkəmlətməyə önəm verir. Dövlət başçısı xarici siyasət məsələlərini daim diqqət mərkəzində saxlayaraq, diplomatiyamız qarşısında duran prioritet vəzifələri müəyyənləşdirərək, onların planlı və ardıcıl surətdə həyata keçirilməsini təmin edir. Məlumdur ki, müstəqilliyinin təməlini möhkəmləndirmiş, dünya ölkələri ilə beynəlxalq münasibətləri genişləndirmişdir. Dövlət başçısının Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hər birini yerinə yetirmişdir. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında ermənıyə dərs verdi. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazdı. Müzəffər Ali Baş Komandanın əmrinə əsasən, Ordumuz döyüş meydanında müharibə qanunlarına əməl etməklə, hərb tarixinə yeni səhifə yazdı. Artıq Qarabağ münaqişəsi həll olunub və Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin edib. Prezident İlham Əliyevin vurğuladığı kimi, münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq. Azərbaycanın işğaldan azad olunan torpaqlarında yeni həyat canlanır.

***Zümrüd BAYRAMOVA***

# Dinlərdə qurban anlayışı: Savab, yoxsa günah?

## Müxtəlif dinlərdə qurbanın mahiyyəti, ritualların formaları, qədimdən bu günə çatan ənənələr

***Qurban mərasimi tarix boyunca müxtəlif mədəniyyətlərdə lap qədimlərdən tətbiq olunan bir ibadət formasıdır. Qurban mərasimləri haqda ən qədim mənbələrdə çox maraqlı məlumatlar var. Qurbanvermə mərasimi Tanrının birliyini söyləyən bütün dinlərdə (iudaizm, xristianlıq, vaişnavizm, zərdüştlük, islam və s.) vacib prinsiplərdən biridir. Bu səbəbdən bütün dinlərdə qurban mərasimləri var. Amma bir-birindən fərqli formalarda.***

Bəzi dinlərdə Tanrıya canlılar da qurban edilir. Bu, həm satanizmdə olduğu kimi insan, həm də islam və iudaizmdə olduğu kimi heyvan qurbanı ola bilər. Amma digər Şərq dinlərində, əsasən zərdüştlük, induizm, vaişnavizm, buddizm, çaynizmdə Tanrıya qansız qurbanlar verilir. Bu qurbanların əsasını təbiətin nemətləri- meyvə-tərəvəz, süd məhsulları, gül-çiçək, ətirli çubuqların tüstüsü təşkil edir.



### Yəhudilikdə Tanrıya nələr qurban edilir?

Yəhudilikdə qurban insanın günahının təmizlənməsi üçün vacib hesab edilir. Onlara görə, bütün qurbanlar günahların bağışlanmasını təmin etmək üçün lazımdır. Yəhudilərin müqəddəs kitabı sayılan "Tövrat"da ənənəvi ibadətlər əsasən qurbanlara həsr edilib.



Yəhudilər həm qanlı, həm qansız qurban verirlər. Qanlı qurban dedikdə heyvan qurbanı nəzərdə tutulur, yəhudilər müsəlmanlardan fərqli olaraq xırda heyvanları- quş, toyuq kimi qurbanlar da verirlər. Amma daha cox qurbanı qansız verməyə üslünlük verirlər. Bu kimi qurbanlar əsasən şirniyyatlardan, tərəvəz və meyvələrdən verilir.





### Xristianlıqda Tanrıya hər şeyi qurban vermək olar

Xristianların qurban anlayışı yəhudilərinkindən qaynaqlandığından onunla bir çox ortaq istiqamətləri var. Lakin xristianlar, yəhudilərin "Fısıh" kimi tanınan qurban bayramındakı ruhi məqsədin İsa Məsihin gəlişi ilə tamamlandığına inanırlar.

"İncil"də qurban qanının axıdılması ilə günahların bağışlanılmasının işarələndiyi deyilir. Amma heyvan qanı ancaq simvol xüsusiyyətini daşıdığından günahların bağışlanmasını təmin edə bilməz. Tanrının İbrahimin oğlunun yerinə göndərdiyi qoç qurbanın bir simvolu kimi qəbul olunur.

"Müqəddəs təkliflərinizi və qurbanlarınızı götürüb Rəbbin seçəcəyi yerə gedəcəksiniz. Yeməli nemətlərinizi, əti və qanı Rəbbin hüzurunda təqdim edəcəksiniz. Qurbanınızın qanı Tanrınızın sunağına axacaq. Amma əti yeyə də bilərsiniz (Qanunun Təkrarı 12:23-27).

"Bibliya"da Tanrıya hər şeyin qurban verilə biləcəyi vurğulanır, ən böyük qurban isə İsa peyğəmbərin bütün insanların günahlarının bağışlanılması üçün özünün fəda etməsi hesab olunur.

### İslam dinində qurban anlayışı nəyi ehtiva edir?

İslam dininə görə, qurbankəsmə İbrahim peyğəmbərin adı ilə bağlıdır. Dini rəvayətə görə, İbrahim bir oğlu olacağı təqdirdə onu minnətdarlıq üçün Tanrıya qurban etməyi niyyət edib. Oğlu İsmayıl dünyaya gəlir və bəlli bir yaşa çatanda Tanrı öz peyğəmbərini sınamaq üçün yuxusunda İbrahimdən sözündə durmasını və oğlunu qurban etməsini tələb edir.

İbrahim Tanrının bu əmrini tərəddüdsüz yerinə yetirməyə gedir. Amma Tanrı öz bəndəsinin sədaqətinə inandığı və onun övlad qanı axıtmaması üçün qeybdən qoç peyda edir və oğlunun əvəzində onun qurban edilməsi istənilir.

İslama görə qurban edilən heyvan Allah üçün kəsilir. "Onların nə ətləri, nə də qanları Allaha çatır. Ona sadəcə sizin düşüncə və niyyətiniz çatır". (Həcc 22/37)

İslamda "pulla qurban payını pulla almaq və qurban əti satmaq" kimi bir anlayış yoxdur. Yəni, qurban kəsilən heyvanın əti ehtiyacı çox olanlara paylanmalıdır.

Qurban bayramında adətən qoyun qurbanı kəsilir. Amma bundan başqa, inək, dəvə, keçi də kəsilməsi mümkündür. Bəzi islamşünaslar deyir ki, toyuq, xoruz və digər bu kimi quşların qurban kəsilməsi düzgün deyil.

Lakin dinşünas-alim Nəriman Qasımoğlu isə bu sözlərlə tam olaraq razılaşmir. İlahiyyatçı deyir ki, qurban kəsmək kütləvilikdən uzaqdır: "Qurban kəsmək əmri yalnız və yalnız Həzrəti peyğəmbərə xitab edilən bir xüsusdur. Başqa müsəlmanların qurban kəsmələri bir fərz deyil, amma peyğəmbərin bir sünnətini, yəni onun qoyduğu qaydaqanunu icra etmək mütləqdir. Bu, İlahidən gələn bir əmr olub, zamana və hadisəyə görə. Tanrı indi hamıya əmr etmir ki, kəsməlisən. Ey müsəlmanlar, qurban kəsin! - deyə bir əmr yoxdur".

Bir neçə il əvvəl haqqın dərgahına qovuşmuş nüfuzlu türk ilahiyyatçı alimi, islamın ən güclü tədqiqatçılarından biri Yaşar Nuri Öztürk də hesab edirdi ki, Quranda heyvan kəsmək deyə bir ibadət yoxdur: "Çünki Qurban Allaha yaxınlaşmaqdır, Ona isə qan tökərək yaxınlaşmaq olmaz". Alimin fikrincə, bu sadəcə adətdir və Həccə gələnlərə yemək təqdim etmək üçün edilib: "Peyğəmbərin səhabələri də heyvan kəsməyib və bunun dini əmr yox, sadəcə adət olduğunu deyiblər. Peyğəmbər özü isə yalnız Həcc vaxtı qonaqlarına yemək vermək üçün heyvan kəsdirib".

Alim islam dininin qurban kəsmək adlı bir ibadəti olmadığını bu çıxışında Qurana əsasən izah edib- https://www.youtube.com/watch?v=_K-vuwXn4fY

*Ardı Səh. 14*


# B İ L D İ R İ Ş

**Hörmətli Səhmdar!**

"BETON MƏMULATLARI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ nəzərinizə çatdırır ki, "19" iyul 2025-ci il tarixində, saat 15:00-da Cəmiyyətin hüquqi və faktiki ünvanı olan Bakı şəhəri, Nərimanov rayonu, Akademik Ziya Bünyadov prospekti 156E ünvanında yerləşən inzibati binasında Cəmiyyətin səhmdarlarının Ümumi Yığıncağı keçiriləcəkdir. Ümumi Yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilməklə, Yığıncaqda həmin məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:

**1.** "Beton Məmulatları" Açıq Səhmdar Cəmiyyətinin 2024-cü il üçün illik maliyyə təsərrüfatı fəaliyyətinin müzakirəsi (2024-cü il üzrə maliyyə hesabatının təsdiq edilməsi) barədə;

**2.** "Beton Məmulatları" Açıq Səhmdar Cəmiyyətinin 2024-cü maliyyə təsərrüfatı ilinin yekunlarına görə dividendlərin səhmdarlara ödənilməsi barədə;

**3.** Yığıncağın gündəliyində duran digər cari məsələlərin müzakirə edilməsi barədə.

Səhmdarlardan və ya onları Ümumi Yığıncaqda səlahiyyətli nümayəndə kimi təmsil edən şəxslərdən Yığıncaqda iştirak etmələri üçün aşağıdakı sənədlərin təqdim edilməsi xahiş olunur.

**1.** Səhmdarın özü iştirak etdikdə onun şəxsiyyətini təsdiq edən sənədin əsli;

**2.** Səhmdar birbaşa özü deyil, nümayəndəsi vasitəsilə təmsil olunduqda təmsil edənin şəxsiyyətini təsdiq edən sənəd və ona səhmdar tərəfindən Ümumi Yığıncaqda təmsiletmə səlahiyyəti ilə bağlı verilmiş notarial qaydada təsdiq edilmiş etibarnamə;

**3.** Səhmdarın adına olan cari bank hesabı məlumatlarına dair sənəd (cari hesab barədə bank rekvizitlərinin əks olunduğu sənəd) - hesablanmış dividend məbləğinin hesaba köçürülməsi üçün.

QEYD 1: Səhmdarların Ümumi Yığıncağına gələn səhmdar və ya onun etibarnamə üzrə səlahiyyətli nümayəndəsi müvafiq olaraq şəxsiyyət vəsiqəsinin və nümayəndəyə verilmiş etibarnamənin əslini təqdim etməlidir.

QEYD 2: Bankda adına hesab olmayan səhmdar ilk öncə istədiyi bankda öz adına cari hesab açmalı və bank tərəfindən ona verilmiş bank rekvizitlərinə dair sənədi Cəmiyyətə təqdim etməlidir.

**Hörmətlə,**
"BETON MƏMULATLARI" ASC-nin
İdarə Heyətinin sədri



# Dinlərdə qurban anlayışı: Savab, yoxsa günah?

## Müxtəlif dinlərdə qurbanın mahiyyəti, ritualların formaları, qədimdən bu günə çatan ənənələr

Əvvəli Səh. 13

### Vaişnavizmdə və induizmin digər qollarında qurban

Bəşəriyyətin ən qədim dinlərindən biri olan vaişnavizmə görə, Tanrının müqəddəs adlarının tərənnümü (zikr)- qurbanların ən böyüyü hesab edilir. Krişnaçılar deyirlər ki, Tanrı öz adlarına bütün transendental enerjilərini hopdurub. Bu dövrdə qurtuluş ancaq və ancaq Tanrının müqəddəs adlarının zikri ilə əldə edilə bilər.

Bakı Krişna Şüuru Cəmiyyətinin üzvü, tədqiqatçı ilahiyyatşünas Ramil Əliyev deyir ki, Qurban- insanın pis keyfiyyətlərinin Zikr odunda yandırılması anlamındadır: "Krişna şüurunda qurban əsasən meyvə-tərəvəzdən, süd məhsullarından, eyni zamanda təzə-tər çiçəklərdən və ətirli çubuqlardan (buxur) verilir. Qurban mərasimi əsasən böyük bir ocağın kənarında həyata keçirilir. Tanrını öyən, vəsf edən nəğmələr söylənir və ocağın kənarına Tanrıya təklif edilən bütün qidalar düzülür. Daha sonra Tanrının bu qidaları qəbul etməsi üçün müvafiq dualar-mantralar oxunur. Vaişnavlar inanırlar ki, Tanrı ona təklif edilən qidalara öz enerjisini hopdurur".

R.Əliyev deyir ki, belə qurban Allahın verdiyi bütün nemətlərə görə Ona bir növ minnətdarlıqdır: "Vaişnavların müqəddəs kitablarında- 5 min il əvvəl göndərilmiş "Baqavad-Qita"da və bütün Veda külliyyatında qurban anlayışı digər dinlərdən kifayət qədər fərqlənir. İnsanın Tanrıya öz sevgisini, vaxtını sərf etməsi, pis vərdişlərdən uzaq olması, xeyirli əməllərlə məşğul olması da bir növ qurban hesab olunur.

"Baqavad-Qita"da qurbanla bağlı belə deyilir:

"Əgər insan Mənə sevgi və sədaqətlə yarpaq, gül, meyvə və ya su təklif edərsə, Mən bunu qəbul edərəm" (9/26).

"Tanrı fədailəri yalnız qurban edilmiş qida yediklərinə görə, hər cür günahdan azad olurlar. Qidanı hissi həzz üçün hazırlayanlar isə, əslində haram qida yeyirlər"- (3/13).

Krişna Şüurunun açaryası (böyük ustadı) Baktivedanta Svami Prabhupada "Baqavad-Qitaya" yazdığı şərhlərində bu cümləri belə izah edir: "Uca Tanrıya fədaisinin Ona



sevgi ilə xidmətindən başqa heç nə lazım deyil. Əgər fədai Ona təmiz və sadə bir qida təklif edərsə, Tanrı bunu qəbul edəcək. Əsl fədai bütün həyat fəaliyyətini Tanrıya həsr etməli, hər şeyini Ona qurban verməli, daim Onu düşünməli, Onun müqəddəs adlarını zikr etməlidir".

.

### Buddizmdə və Caynizmdə qurban necədir?

Buddizmdə Buddaya səcdə edilir. Buddist məbədə daxil olanda əvvəlcə Buddanın murtisinə (heykəlinə) təzim edir və Buddaya çiçək, ətirli ağacların tüstüsünü (buxur yandırmaq), meyvə, tərəvəz təklif edir. Hər bir buddistin evində Buddanın kiçik heykəlimurtisi var. Buddistlərə görə qurban qansız olmalıdır. Qurban heç bir canlıya zərər vermədən həyata keçirilməlidir.

Qurbanlar bir qayda olaraq təmiz və saf tərəvəzlər, eləcə də meyvələrdən olur. Buddanın murtisinin qarşısına qoyulan qurbanların qəbul edilməsi üçün təyin edilmiş dualar oxunur. İnanca görə təklif olunmuş qidaların sonra insanlar tərəfindən yeyilməsi xoşbəxtlikdir. Çünki o qidalara Buddanın ölməz enerjisi hopub.

Əvvəllər sərbəst şəkildə dərvişlik- zahidlik edən çaynist rahiblər, daha sonralar monastırlarda məskən saldılar. Rahib və rahibələr hər gün müqəddəs duaları oxuyaraq, ruh və bədənlərini tərbiyə edirlər. Caynistlərin ən birinci prinsipi (ahimsa prinsipi) heç bir canlını incitməməkdir, bunun üçün də onlar qəti şəkildə ət yemirlər. Elə bu səbəbdən də çaynizmdə qurban anlayışı qansız qurban deməkdir. Yəni, onlar Tanrıya meyvə-tərəvəz qurbanı, ətirli ağaclardan hazırlanmış buxurları təklif edirlər.

Qurban mərasimi hər gün yerinə yetirilir. Tanrının murtiləri önündə ilahilər, yəni ruhi nəğmələr söylənir, Ona mahnılar qoşulur. Daha sonra murtilərin qabağına qansız qurbanlar düzülür. Bu qurbanların əsasını təmiz yuyulmuş təzə meyvələr, tərəvəzlər və buxurlar təşkil edir. Daha sonra isə Tanrıya ətirli yağlar və təzə çiçəklər təklif olunur.

### Zərdüştülükdə Tanrıya nələr qurban verilir?

Bəşər tarixinin ilk təktanrıçılıq dinlərindən hesab olunan Zərdüştlükdə (Mazd-Yasna) qurban mərasimi hər zaman ən vacib rituallardan biri olub. Qurban Tanrının ən güclü maddi enerjisi sayılan Od vasitəsilə verilirdi. Novruz, Xvarna kimi bayramlarda böyük tonqallar yandırılır, muğlar (maqlar) meyvə-tərəvəz, dənli bitkilər, gül-çiçək kimi təbiət nemətlərindən Oda atmaqla Tanrıya qansız qurbanlar verərdi. Bu mərasimi 2005-ci ildə çəkdiyimiz qısametrajlı filmdə səhnələşdirmişik- bu linkdən baxa bilərsiniz ( h t t p s : / / w w w . y o u t u - be.com/watch?v=H54k30G8WiE ).

Tanrıçılıq, şamançılıq kimi ən qədim din olan Zərdüştlükdə də qurban mərasimi humanizmə, sülhə əsaslanıb. Zərdüştlüyün müqəddəs kitabı olan "Avesta"da insan və heyvanların qurban verilməsi qətiyyətlə pislənir. Tanrıya yalnız bar verən bitkilərin məhsulları qurban edilir. Belə ki, hətta canlı olan bitkinin özünün yox, barının qurban edilməsi canlının öldürülməsinin qəbul edilmədiyini göstərir.

Nəsir Rzayevin "Möcüzəli qərinələr" kitabından bir çıxarış (Azərnəşr, 1984, səh. 35): "Avesta qanunlarına əsasən kahinlər mehrabda yanan müqəddəs odun işığında qurban (nəzir) vermə ayini keçirərkən əllərində müqəddəs "baresma çubuqlar"ı tutduqları halda, Tanrının dünyanı yaratması haqqında himn, mahnı və dualar oxuyurmuşlar".

"Mazd-Yasna"da və sonralar onun ilkin ehkamlarının bərpası məqsədilə yaranmış maniçilik, məzdəkilik, hürrəmilik, sufilik kimi dini təlimlərdə qurban mərasimləri demək olar ki, tamamilə eyni olub. Bu mərasimlərin bəzi elementləri bu gün Novruz bayramı vasitəsilə yaşamaqdadır, amma bir çoxu unudulub.

Zərdüştlük ilkin vaxtlarda qansız qurban mərasimlərinin davamlı keçirildiyi din olub, lakin sonradan ideoloji deqradasiya gedib və heyvanların da (xüsusilə atın) qurban edilməsi də rituallara daxil edilib.



### Afrika dinlərində qurbanvermə anlayışı

Afrika mənşəli dinlərdə də qurban mərasimləri müxtəlif formalarda həyata keçirilir. Nüfuzlu ilahiyyatşünas, tədqiqatçı alim Con Feyvors özünün "Ruhi döyüşçü" adlı məşhur elmi-fəlsəfi əsərində qeyd edir ki, dünyada Afrika dini ayinləri kimi təqdim edilənlərin demək olar ki, hamısı əsl Afrika ənənələrinin təhrif olunmasından başqa bir şey deyil.

İlahiyyatçı alimin fikrinə görə, hazırda planetdə mövcud olan şüur səviyyəsi ilə icra olunan canlı varlıqların qurban gətirilməsi ayinləri ilahi gəlişə səbəb ola və ilahi şüuru oyada bilməz. İncə maddi enerjiyə həssas olan adamlar elə mərasimlərdən kənar durmalıdır. Çünki, onları əhatə edən sahə mənfi enerji ilə doludur. Bu enerji insan şüurunun dərinliyinə keçə bilir.

Qurbanvermə ayinləri qədim Misirdə də əsas dini rituallardan biri olub. Con Feyvors qeyd edir ki, o zamanlar piramidalar məbəd rolunu oynayıb, onlarda od qurban gətirmələri və ayinlər icra edilib.

"Piramidalar kiçik formada olan kainata bənzəyir, onun tikintisi yerdən aşağı planetlərdən tutmuş yüksək planetlərə və sonra da ruhi aləmə kimi bütün kainatın quruluşunu ifadə edir. Piramidanın zirvəsi ruhi aləmi ifadə edirdi. Zirvənin üstündə qara amanit daşı qoyulub. Bu daş isə Uca Tanrının rəmzi idi".

Alim yazır ki, qədim inanclarda qurbanvermə mərasimi təyin edilmiş çərçivəyə salınmış şəkildə idi və müəyyən şərtlərə riayət etməklə, bilikli, elmli və eyni zamanda mömin adamlar tərəfindən keçirilirdi: "Kahin heyvanın bu həyatını əlindən alaraq, onu ya "yuxarı səltənət"ə yollayır, ya da növbəti həyatda onun daha yüksək səviyyəli bədən almasını təmin edirdi.

Beləliklə, qurbankəsmə nəticədə heyvanı azad edirdi. Bizim dövrdə isə adamlar heç bir müvafiq biliyi və şüur səviyyələri olmadan heyvanları qurban verirlər. Bu isə həm onların özləri, həm də onun əhatəsində olanlar üçün arzuolunmaz mənfi nəticələrə səbəb olur".

### Satanizmdə qurban- bu əsl dəhşətdir!

Satanistlər ayinlərində əsasən pişiyi qurban edirlər və kəsilmiş pişiyin ətini qovurub yedikdən sonra həmin pişiyin qanını da içirlər. Onlar qurbanlıq arasında fərq qoymurlar, yalnız pişik deyil, xoruz, dovşan kimi heyvanları da qurban verirlər. Çünki satanist ayinində əsas olan hər hansı bir heyvanın qurban edilməsidir, fərq etməz bu hansı heyvandır.

Lakin əksər satanistlər daha çox pişiyə üstünlük verirlər. Bunun da olduqca fərqli səbəbləri var. Bəzilərinə görə, pişik "nankor heyvan" olduğu üçün məhz onu seçmək lazımdır. Başqa bir səbəb isə asan əldə edildiyi üçündür. Üçüncü səbəb: insanlar pişiyi sevir və dəyər verirlər, insanları incitmək və dəyərləri heçə saymaq üçün pişiyi qurban kəsmək satanistlərə daha çox həzz verir.

Satanistlər pişiyin qanının içənə "ölümsüzlük" veriləcəyini hesab edirlər. Əsas səbəb isə, satanist inancında şeytanın "qaniçən" kimi təsvir edilməsidir. Yəni, satanist pişiyin qanını içirsə, şeytanlaşmış olur.

Qısası, satanistlərə görə, şeytana daim canlı qurban verilməlidir. İldə bir dəfə isə gənc qızın qurban edilib qanının içildiyi barədə məlumatlar var. Çünki satanizmin əsas xüsusiyyətlərindən biri də daim şər tərəfdə qərar tutmaq və həmişə dinin qadağan etdiklərini etməkdir.

Bakıda da satanistlərin gizli icmasının olduğu barədə mediada məlumatlar yayılır. Sosial şəbəkələrdə bəzi gizli profillər açmış şəxslər özlərini satanist adlandırır.

***

Ümumiyyətlə, ən nüfuzlu ilahiyyatşünasların fikrincə, qurban anlayışı yalnız Tanrıya xidməti özündə ehtiva edir, bu səbəbdən də hər bir insan Tanrıya nəyisə qurban verə bilər. Buraya cox sey daxil ola bilər- həm maddi, həm mənəvi cəhətdən. Bu, maddi sərvə-




tinin bir hissəsindən əl çəkmək və onu imkansızlarla paylaşmaq da ola bilər ki, ən böyük qurban bu sayılar. Ya da zərərli vərdişlərindən, həzzverici adətlərindən, haqsız və haram sərvət əldə etməkdən, başqalarına zərər vurmaqdan və digər mənfi xüsusiyyətlərindən əl çəkmək. Bütün dinlərin ümumi fikrinə görə, qurban yalnız saf qəlbdən, təmənnasız, sevgi və səmimiliklə təklif edildikdə Tanrı tərəfindən qəbul olunur.

*Elçin Bayramlı*
*Sağlam Cəmiyyət Hərəkatının rəhbəri*

# Müharibə, istismar, zorakılıq, təcavüz və UŞAQLAR

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

***Silahlı münaqişələrin baş verdiyi ərazilərdə yaşayan uşaqlar hər gün ağlasığmaz dəhşətlərlə üzləşirlər. Onlar rahat yata, küçədə oynaya, məktəbə gedə və ya təcili hallarda həkimə müraciət edə bilmirlər. Hər il 4 İyun Təcavüzə Məruz Qalmış Uşaqların Beynəlxalq Müdafiəsi Günü ərəfəsində uşaqlara qarşı ən çox rast gələn haqsızlıq barədə yazılır, nümayişlər keçirilir, lakin dünyada yenə də zorakılıq, təcavüz görən uşaqlar var.***





Uşaqların hərbi əməliyyatlara cəlb edilməsi, qətllər, cinsi zorakılıq, oğurluq, məktəblərə və xəstəxanalara hücumlar, humanitar yardımdan faydalana bilməmək kimi bir çox qanunsuzluqlara məruz qalan uşaqlar münaqişələr zamanı ən çox zərər görən tərəfdir. BMT tərəfindən 1982-ci ildə təsis edilən 4 iyun tarixinin qeyd olunmasında məqsəd münaqişə zonalarında və zorakılığa məruz qalan uşaqların müdafiəsini gündəmə gətirmək, onların hüquqlarının qorunmasını təşviq etmək və bu sahədə maarifləndirmə aparmaqdır.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) 2024-cü il hesabatına görə, 2020-2023-cü illər arasında aşkar edilmiş insan alveri qurbanlarının 38%-i uşaqlardır. Bu, 2019-cu ildən bəri uşaq qurbanlarının sayında 31% artım deməkdir. UNICEF-in məlumatına görə, dünyada hər beş uşaqdan biri, yəni təxminən 473 milyon uşaq münaqişə zonalarında yaşayır. Uşaq ölümlərinin və şikəstliyin 25%-dən çoxu partlayıcı təhlükələrlə, o cümlədən müharibənin partlayıcı qalıqları, əldəqayırma partlayıcı qurğular və minalar ilə bağlı olub.

UNICEF-in məlumatına görə, 2024-cü ilin əvvəlindən etibarən Sudanda 221 uşaq zorlanıb. Bu halların 66%-i qız uşaqları, 33%-i isə oğlan uşaqları ilə bağlıdır. Haitidə silahlı qruplar tərəfindən uşaqlara qarşı cinsi zorakılıq halları artıb. ABŞ-da 2024-cü ildə 7,300-dən çox miqrant uşaqla bağlı insan alveri şübhələri araşdırılmamış qalıb.

I və II Qarabağ müharibəsi zamanı zülüm görən, əsir düşən, qətl edilən, qaçqın olan çox uşaq oldu. I Qarabağ müharibəsində 3890 nəfər itkin düşmüş şəxsdən 71 nəfəri uşaqlar olub. Ermənistan əsir götürdüyü uşaqların saxlanılması faktını beynəlxalq təşkilatlardan gizlədərək, onların sonrakı taleyi barədə indiyə kimi məlumat vermir. Ermənistanın Azərbaycanın işğal etdiyi ərazilərdə girov götürdüyü uşaqlardan 168-i Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyəti nəticəsində azad edilib.

Xocalı şəhərinin işğalı zamanı bir gecədə vəhşi qətliamın qurbanı olan 613 dinc sakindən 63-ü məhz uşaqlar idi. Xocalı faciəsi zamanı 25 uşaq hər iki valideynini itirib. Erməni vandallarının Xocalıda törətdiyi qanlı cinayət nəticəsində 76 azərbaycanlı uşaq isə həmişəlik əlil olub. 1992-ci ildə Xocavənd rayonunun Qarabağlı kəndindən girov götürüb sonra güllələdikləri 117 nəfər dinc sakininin güllələnən 76 nəfərindən 20-si də uşaqlar idi. Horadiz yolunda əsir götürülən 40 nəfərin 29-u, Gorazıllı kəndindən götürülmüş girovların 40-ı, Kəlbəcər rayonunun Başlıbel kəndindən girov götürülmüş qoca, qadın və uşağın 29-u da uşaq idi və onlar amansızlıqla qətl edilmişdilər.

1988-ci il dekabrın 5-də ermənilərin Hamamlı şəhərində (Spitak) iri diametrli boruya doldurduğu, hər iki tərəfini qaynaq etdikləri həmin borunu hündür uçurumdan dərəyə ataraq amansızlıqla qətlə yetirdiyi 17 nəfər də uşaq idilər və onların heç bir günahı yox idi. 1988-ci ildə Qarakilsə-Pəmbək mahalında 70-ə yaxın 5-12 yaşlarındakı uşaqları yenə boruya dolduraraq, hər iki tərəfini bağlayıb öldürdülər. Onların nə günahı vardı?





Dünyada sülhün iki simvolu var, biri ağ göyərçinlər, digəri gülümsəyən uşaqlar. Hər ikisi saflığın, təmizliyin, dincliyin simvoludur. Dünyada sabitliyi, dincliyi, sülhü ən çox arzulayan da övladı olan insanlardır. Dünyanın yaşanacaq yer olması üçün, uşaqlarımızın sülh içində böyüməsi üçün bu sabitliyi qorumaq məcburiyyətindəyik. Bəşəriyyətin xoşbəxtliyi uşaqların qorunmasından, onların yaxşı tərbiyə olunmasından asılıdır. Axı bu günün uşaqları sabahın böyükləri, dolayısı ilə idarəçisidirlər. Sülhü təmin etmək üçün bütün dünya uşaqları arasında dostluq əlaqələrini qurmaq, bütün xalqlarının vəhdətini yaratmaq, uşaqlara sülhün nə demək olduğunu anlatmaq lazımdır.

”Uşaq Hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununa və Ailə Məcəlləsinə əsasən, uşağın hüquq və mənafeləri pozulduqda, o cümlədən valideynlər uşağın təhsili və tərbiyəsi ilə bağlı vəzifələrini yerinə yetirmədikdə, uşağın hüquq-mühafizə orqanlarına müraciət etmək hüququ var. Uşaq pozulmuş hüququndan və onun müvafiq prosessual qaydalarından asılı olaraq fərdi qaydada və ya öz təmsilçisi vasitəsilə müraciət edə bilər.

Azərbaycan hökuməti və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi müvafiq sahədə beynəlxalq qurumlarla əməkdaşlıq edir. Bundan əlavə, Azərbaycan əlil uşaqlar, evsiz uşaqlar, uşaqlara qarşı zorakılığın qarşısının alınması, erkən nikahlar, uşaq ölümləri, məktəbəqədər təhsil kimi təhsil, səhiyyə və digər sosial məsələlərdə UNICEF ilə sıx əməkdaşlıq edir.

1992-ci ildə Azərbaycanda BMT-nin ” Uşaq hüquqları haqqında” Konvensiyası və səkkiz il sonra onun ”Uşaqların silahlı münaqişələrə cəlb edilməsi” və ”Uşaqların satışı, uşaq fahişəliyi və uşaq pornoqrafiyası” daxil olmaqla iki Fakültativ Protokolu ratifikasiya edilib.

Azərbaycan 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Yetkinlik yaşına çatmayanlara dair ədalət mühakiməsinin həyata keçirilməsinə dair Standart Minimum Qaydalarını, 1996-cı ildə Nikahın bağlanmasına razılıq, nikah üçün minimum yaş və nikahların qeydiyyatı haqqında Konvensiyanı, 2004-cü ildə Avropa Sosial Xartiyasını və Ayrı-seçkiliyin aradan qaldırılması haqqında Konvensiyanı və 2006-cı ildə Təhsil Sahəsi üzrə hüquqi sənədləri qəbul edib.

Hökumətimiz, BMT-nin Uşaq Hüquqları Komitəsinə (UNHCR) Konvensiyanın və onun iki Fakültativ Protokolunun həyata keçirilməsi üçün dövri hesabatlar təqdim edir. Bundan əlavə, Azərbaycan ”Uşaqların yaşaması, qorunması və inkişafı haqqında” Ümumdünya Bəyannaməsinin tərəflərindən biridir. ”Uşaq hüquqlarının müdafiəsi haqqında” da bir sıra milli qanunvericilik aktları təsdiq edilib. Azərbaycan, 1998-ci ildə qanunvericiliyini Uşaq Hüquqları Konvensiyasında (UHK) qeyd olunan prinsiplərə uyğunlaşdıran ”Uşaq hüquqları haqqında” qanunu qəbul edib.

Təmənnamız, eyni zamanda, uşaqlara uşaqpulu ödənilməsi istiqamətindədir. Bu istiqamətə uzun müddətdir müzakirələr aparılır, sosial yardım kimi təyinatlı müavinət modeli uşaqpulu təyinatında da əlverişli ola bilər. Aztəminatlı ailələrin övladına dövlət öz dəstəyini bu yolla hiss etdirə bilər.

***Lalə Mehralı***



SƏS
4 iyun
2025-ci il




# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. PressaInform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!




# "Ailə qurmaq evlənmək deyil"



*MÜNASİBƏT*

"Qədimdən ailə müqəddəs hesab olunub". Bu sözləri SİA-ya açıqlamasında "YENİ HƏYAT" Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri Nailə İsmayılova deyib. Onun sözlərinə görə, istər milli-mənəvi dəyərlərimiz baxımından, istərsə də qanunvericiliyimizə görə, ailə toxunulmazdır. Lakin bəzi hallarda müşahidə edirik ki, ailə anlayışını yalnız söz olaraq qəbul edən, onun dərin mənasını dərk etməyən insanlar evlənirlər və qısa müddət sonra ayrılırlar: "Bu evlilik bəzən rəsmi, bəzən isə qeyri-rəsmi şəkildə baş tutur. Lakin evlənmək hələ ailə qurmaq demək deyil. Bu, əlbəttə ki, mənim subyektiv fikrimdir.

Bəlkə də elə yeganə xalqıq ki, bizdə "ailə qurmaq" ifadəsi işlənir. Bu ifadənin kökündə, yəqin ki, ailəni "kiçik dövlət" kimi görməyimiz dayanır. Mövzuya gəldikdə isə bu "kiçik dövlətdə" baş verən hadisələr, bəli, ailənin daxili işi sayıla bilər. Lakin burada baş verən xoşagəlməz hallar - xüsusilə zorakılıq kimi hallar - artıq ölkə qanunvericiliyi çərçivəsində tənzimlənir.

Son vaxtlar ailələrdə baş verən zorakılıq halları ciddi və narahatedici nəticələrə gətirib çıxarır. Təbii ki, ailədaxili münaqişələrdə iki tərəfdən birinin digərinə qarşı göstərdiyi istənilən zorakılıq halı hüquqi və mənəvi cəhətdən qəbuledilməzdir. Bu cür zorakılıq hallarının səbəbləri müxtəlif olsa da, mahiyyəti dəyişmir - zorakılıq insanlığa yaraşmayan, digər şəxslərə zərər verən və ciddi təhlükə yaradan davranış formasıdır. Xüsusilə son illərdə artan fiziki və psixoloji-sosial zorakılıq halları narahatlıq doğurur. Bu zorakılıqların təməlində ya ciddi sosial-psixoloji səbəblər dayanır, ya da bir-birini kifayət qədər tanımayan insanların tələsik izdivaca girməsi rol oynayır. Bəzən isə kənar müdaxilələr - qohumların, dostların və ya üçüncü şəxslərin müdaxiləsi - ailədaxili kiçik bir narazılığı böyük bir problemə çevirə bilər.

Ailə, sevgi, anlayış və qarşılıqlı hörmət üzərində qurulmalıdır. Əgər bu əsaslar zəifdirsə və ya yoxdursa, ən xırda anlaşılmazlıq belə böyük fəsadlara səbəb ola bilər".

***Günel Rəşadqızı***

# İstanbul-Naxçıvan-İstanbul reysi üzrə uçuşlara başlanılıb



Dünəndən Türkiyənin İstanbul şəhərindən Azərbaycanın Naxçıvan şəhərinə və əks istiqamətdə uçuşlara başlanılıb. Reysləri qonşu ölkənin "AJet" aviaşirkəti həftədə iki dəfə olmaqla (çərşənbə axşamı və şənbə günləri) həyata keçirir. Qiymətlər isə 120 manatdan başlayır. Dünən Bakı vaxtı ilə saat 05.55-də İstanbuldakı Sabiha Gökçen beynəlxalq hava limanından səmaya qalxan təyyarə saat 09:05-də Naxçıvan aeroportuna enib.

*İZAH EDİLDİ*

# Yayda yanacaq sərfiyyatını necə azaltmaq olar?

"Yanacaq sərfiyyatını artıran bir çox amil var ki, sürücülərin çoxu bunlara diqqət yetirmir. Məsələn, kondisioner mühərrikin əlavə güc sərf etməsinə səbəb olur və bu da yanacaq xərclərini artırır. Yay aylarında bu təsir daha da hiss olunur". Bu sözləri SİA-ya açıqlamasında Performance Center Satış sonrası xidmət departamentinin rəhbəri Razil Nağıyev deyib. Razil Nağıyev sözlərinə belə davam edib: "Təkərlərin təzyiqi də mühüm rol oynayır. Əgər təkərlərdə hava azdırsa, yol ilə sürtünmə artır və nəticədə avtomobil daha çox yanacaq sərf edir. Yayın isti günlərində hava təzyiqi dəyişkən olur, buna görə də təkərləri vaxtaşırı yoxlamaq vacibdir. İstehsalçının tövsiyə etdiyi təzyiq səviyyəsini qorumaq həm təhlükəsizlik, həm də yanacağa qənaət baxımından faydalıdır.

Çirkli hava filtri mühərrikin səmərəli işləməsinə mane olur. Hava axını zəiflədiyi üçün mühərrik daha çox işləməli, bununla da daha çox yanacaq sərf etməli olur. Avtomobildə daşınan artıq yüklər də mühərrikin yükünü artırır. Xüsusilə dam üstü yük qutuları - hətta boş olduqda belə - aerodinamik müqaviməti artıraraq yanacaq sərfini 10-20 faizə qədər artıra bilər. Sürmə tərzi də yanacaq sərfiyyatına təsir edir. Qəfil sürətlənmələr və ani əyləclər sərfiyyatı artırır. Əvəzində, sabit və orta sürətlə hərəkət etmək daha qənaətlidir. Əgər avtomobil kruiz kontrol (cruise control) sistemi ilə təchiz olunubsa, magistral yollarda ondan istifadə etmək yanacağa qənaət edə bilər.



Sonda bir kiçik məsləhət də: yanacağı səhər və ya axşam saatlarında doldurmaq daha məqsədəuyğundur. Hava sərin olduqda yanacaq buxarlanması azalır, bu da itkisiz və daha səmərəli dolumu təmin edir".

***Ayşən Vəli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000